29 oktyabr 2021 №81 (1858)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Türkiyə Cümhuriyyəti 98 yaşını qeyd edir

### "Bir millət – iki dövlət" şüarına uyğun olaraq birliyimiz davam edəcək




Oktyabrın 29-u Türkiyənin milli bayramı – Cümhuriyyət Günüdür. 1923-cü ilin 29 oktyabrında elan edilən Türkiyə Cümhuriyyətinin 98 yaşı tamam olur.

Prezident İlham Əliyev Cümhuriyyət Günü münasibətilə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana təbrik məktubu göndərib.

"Siyasi, iqtisadi, hərbi cəhətdən qüdrətli və sabit Türkiyə Respublikası bu gün beynəlxalq arenada olduqca əhəmiyyətli yerə malikdir. Sizin rəhbərliyiniz altında icra olunan irimiqyaslı proqramlar, layihələr qardaş ölkənin hərtərəfli tərəqqisinə və yüksəlişinə xidmət edir. Şübhəsiz, xalqın Sizə olan böyük inam və etimadı həyata keçirdiyiniz strateji inkişaf xəttinin uğurunu təmin edən ən mühüm amildir", – deyə təbrikdə vurğulanır.

Qeyd olunur ki, xalqlarımızın ortaq tarixi və milli-mənəvi dəyərləri kimi möhkəm təməllər üzərində dayanan Azərbaycan-Türkiyə dostluq və qardaşlıq əlaqələri birliyimizin və həmrəyliyimizin bariz ifadəsidir: "Hazırda bu əlaqələrin tarixi dövrünə şahidlik edirik. Şuşa Bəyannaməsində müəyyənləşdirdiyimiz hədəflərə və istiqamətlərə uyğun olaraq müttəfiqlik münasibətlərimiz gündən-günə genişlənməkdə və yeni məzmunla zənginləşməkdədir.

Azərbaycanın öz torpaqlarının işğaldan azad olunması uğrunda apardığı mübarizədə şəxsən Sizin, qardaş Türkiyə dövləti və xalqının qəti, birmənalı siyasi və mənəvi dəstəyi böyük rol oynamışdır. Azərbaycan-Türkiyə həmrəyliyini bir daha bütün dünyaya nümayiş etdirmiş bu dəstəyi xalqımız heç zaman unutmayacaq".

Prezident əmin olduğunu bildirib ki, Azərbaycan və Türkiyə "Bir millət – iki dövlət" şüarına uyğun olaraq birliyimizin, bütün sahələrdə səmərəli və fəal əməkdaşlığımızın daha da möhkəmləndirilməsi və inkişafı üçün birgə səylərini davam etdirəcək.

## Milli ruhumuzun bayramı Zəfər notlarına köklənəcək

Tariximizə şan və şərəf səhifəsi kimi yazılan 44 günlük Vətən müharibəsində tarixi Zəfərin ildönümü yaxınlaşır. Bir il öncə bu günlər Azərbaycan xalqı, eləcə də dünya azərbaycanlıları Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun Vətən torpaqlarını kəndbəkənd, şəhərbəşəhər işğaldan azad etməsindən sonsuz həyəcan və qürur içində idi. Qalibiyyət soraqlı xəbərlər bir-birini əvəz etdikcə hər kəs bu Zəfər yürüşünə tac olacaq ən böyük müjdəni gözləyirdi... 2020-ci ilin 8 noyabrında müzəffər Ali Baş Komandan bu müjdəni – Qarabağın baş tacının, mədəniyyətimizin beşiyinin azad olunması xəbərini bizlərə verdi. Bu, otuz ilin intizarına, yurd həsrətinə son – milli ruhumuzun bayramı idi.

Bir ildir ki, birliyimizin, yenilməzliyimizin rəmzi olan bu tarix mədəniyyətin bütün sahələrinə sirayət edərək, Zəfər ruhumuzu alovlandırır. Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 1-10 noyabr tarixində şanlı Qələbəmizin birinci ildönümü münasibətilə keçiriləcək silsilə tədbirlər də bunun təsdiqi olacaq.










Zəfər ruhlu rəngarəng tədbirlər ölkənin aparıcı teatr-konsert müəssisələrinin qabaqcıl kollektivlərin iştirakı ilə gerçəkləşəcək.

Qələbə notlarına köklənmiş proqram 2 noyabrda Heydər Əliyev Sarayında "Qarabağ bizimdir!" Zəfər konserti (Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestri) ilə başlayacaq. 3 noyabrda Kamera və Orqan Musiqisi Zalında gənc istedadların iştirakı ilə Zəfər Gününə həsr olunan musiqi gecəsi, noyabrın 4-də Beynəlxalq Muğam Mərkəzində "Havalansın Xanın səsi!" adlı milli musiqi axşamı (tədbir həm də Xan Şuşinskinin 120 illiyinə həsr olunur) keçiriləcək. Zəfər Gününə həsr olunmuş silsilə tədbirlər 5 noyabrda Azərbaycan Dövlət Akademik Musiqili Teatrında 44 günlük Vətən müharibəsində Ordumuzun qazandığı Zəfərə və şəhidlərin xatirəsinə həsr olunmuş "4.4 Qısa Tamaşalar Festivalı"nın yekun mərasimi, 6 noyabr tarixində Azərbaycan Dövlət Uşaq Filarmoniyasının "Zəfər" konserti (tamaşaçı qismində şəhid və qazi övladları dəvət olunacaq) ilə davam edəcək.

Proqrama həmçinin noyabrın 6-da Beynəlxalq Muğam Mərkəzində keçiriləcək "Jazz says Victory" caz axşamı və Heydər Əliyev Sarayının ilk dəfə təqdim edəcəyi "Qarabağ şikəstəsi" oratoriyasının (bəstəkar Vasif Adıgözəlov) musiqili-xoreoqrafik səhnə versiyası, eləcə də 10 noyabrda Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrında Xalq artisti Sərdar Fərəcovun "Cavad xan" baletinin nümayişi daxildir. Mədəniyyət Nazirliyinin dəstəyi ilə keçirilmiş, Vətən müharibəsindəki şanlı Qələbəyə həsr olunmuş bəstəkarlıq müsabiqəsinin qaliblərinin əsərləri də bu ərəfədə elan olunacaq.

Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 2020-ci ilin 44 günlük Vətən müharibəsində qazandığı Zəfər sayəsində Azərbaycan ərazi bütövlüyünü bərpa etdi. Otuz ilə yaxın sürən işğal dövründə bütün yaşayış məntəqələrində sosial infrastruktura yanaşı, tarixi-mədəni miras da dağıdılaraq talan edilib. Bu gün Azərbaycan dövləti qarşısında dayanan başlıca məsələ işğaldan azad edilmiş torpaqların bərpası, dirçəlişidir.

## İqtisadi tərəqqi ilə mədəni inkişafın ahəngdarlığını necə təmin etməli?

Bu, təkcə dövlətin deyil, xalq və cəmiyyət olaraq hamımızın, o cümlədən işgüzar dairələrin, özəl sektorun ümdə vəzifəsi olmalıdır. Ötən müddətdə bu istiqamətdə genişmiqyaslı işlərə başlanılıb. İşğaldan azad olunmuş torpaqlarda müxtəlif sahələr üzrə, o cümlədən mədəniyyət infrastrukturunun yaradılması üçün yerli və xarici investorların cəlb edilməsi böyük əhəmiyyət kəsb edir.



Oktyabrın 27-də Bakıda Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti işə başlayıb. İqtisadiyyat Nazirliyi və Mədəniyyət Nazirliyinin dəstəyi, İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun (İCYF) təşkilatçılığı ilə keçirilən tədbirdə 20-dən çox ölkədən nümayəndələr – hökumət rəsmiləri, beynəlxalq təşkilatların və diplomatik korpusun təmsilçiləri, iş adamları, startapçılar, gənclər təşkilatları iştirak edir.

"Nizami Gəncəvi İli"ndə gerçəkləşən, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş sammit geniş anlamda həm də mədəniyyətin gələcəyinə konseptual baxış, iqtisadi tərəqqi ilə mədəni inkişafın ahəngdarlığını təmin etmək üçün fikir mübadiləsi platformasıdır.

davamı səh. 3-də

## Türk Şurasının növbəti sammiti ölkələrimizi daha da yaxınlaşdıracaq

Bizim xalqlarımızı ortaq köklər bağlayır və Türk Şurası çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayırıq. Azərbaycanın rəhbərlik etdiyi Türk Şurasının dövlət başçılarının yaxın bir ayda növbəti Zirvə görüşü keçiriləcək. Biz sədrliyi Türkiyəyə ötürəcəyik. Əlbəttə, bu sammit ölkələrimizi daha da yaxınlaşdıracaq.

Azərbaycan Prezidenti İlham Əliyev bu sözləri oktyabrın 28-də Qırğız Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kayrat Osmonaliyevin etimadnaməsini qəbul edərkən deyib.

səh. 2

## Azərbaycan və Xorvatiya arasında mədəni əməkdaşlıq genişləndiriləcək

Xorvatiyada səfərdə olan mədəniyyət naziri Anar Kərimov bu ölkənin mədəniyyət və media naziri xanım Nina Obulyen Korjineklə görüşüb.

Anar Kərimov Azərbaycanla Xorvatiya arasındakı əməkdaşlığın bir çox sahədə uğurla davam etdiyini vurğulayaraq, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək və mədəniyyət sahəsində əlaqələrin hər iki tərəf üçün önəmini qeyd edib.

səh. 2

## Moskvada Bakı Musiqi Akademiyasının 100 illiyinə həsr olunmuş konsert



P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının Böyük zalında Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) 100 illiyinə həsr olunmuş konsert keçirilib.

Yubiley axşamı Heydər Əliyev Fondu və Azərbaycanın Rusiyadakı Səfirliyi tərəfindən təşkil olunub. Tədbirə Rusiyanın Xalq artisti Emmanuil Vitorqan aparıcılıq edib.

BMA-nın rektoru, SSRİ Xalq artisti Fərhad Bədəlbəyli tamaşaçıları salamlayaraq deyib: "Bu gün səhnəyə Bülbül, Adıgözəlzadə kimi soyadları daşıyan musiqiçilər çıxacaq. Bütün bu soyadlar Qarabağla, Şuşa ilə bağlıdır. Bu gün biz sizə Azərbaycanın musiqi mədəniyyətini təqdim edəcəyik. Azərbaycan mədəniyyətinin tarixi minilliklərlə ölçülür, lakin peşəkar klassik məktəb 100 ildə böyük yol keçib". Fərhad Bədəlbəyli xatırladıb ki, Üzeyir Hacıbəyli Sankt-Peterburq Konservatoriyasında təhsil alıb, dahi rus bəstəkarı Dmitri Şostakoviç Qara Qarayevin müəllimi olub.

davamı səh. 5-də



## Paytaxtımızda "Caz səsləri" eşidilir

Oktyabrın 26-da Beynəlxalq Muğam Mərkəzində "Caz səsləri" layihəsinin açılışı keçirildi. Layihə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) 100 illik yubileyinə həsr olunub.

İlk konsertdə gənc caz ifaçısı Nərmin Məmmədlini səhnədə pianoçu Afşin Əlizadə, bas-gitarada Nicat Paşazadə və zərb alətlərində Həsən Bilalov müşayiət edirdi.

səh. 5

## "Fulya" sənədli filminin təqdimatı olacaq

Oktyabrın 31-də Nizami Kino Mərkəzində Azərbaycan və Türkiyənin müştərək istehsalı olan "Fulya" sənədli filminin təqdimatı keçiriləcək.

Film 44 günlük Vətən müharibəsində türkiyəli telejurnalist Fulya Öztürk və teleoperator Halil Kahramanın peşə fədakarlığından bəhs edir, baş verən hadisələrə onların baxışını ortaya qoyur. Çəkilişlər bu ilin yayında Gəncə, Bərdə, Tərtər və Bakıda aparılıb.




Filmin rejissorları Aykut Taşkın və Tahir Tahiroviç, təsvir rejissoru Cengizhan Durmaz, prodüserləri Özcan Dada və Fariz Əhmədovdur.

Ekran əsəri "Azərbaycanfilm" Kinostudiyası ilə Türkiyənin "Dada Yapım" şirkətinin birgə istehsalıdır.

Təqdimatda "Fulya"nın yaradıcı heyəti, həmçinin filmin qəhrəmanları – Fulya Öztürk və Halil Kahraman iştirak edəcəklər.

Xatırladaq ki, "Fulya" filmi oktyabrın 8-dən etibarən Türkiyənin, oktyabrın 28-dən etibarən isə Azərbaycanın kinoteatrlarında nümayiş olunur.

### Saz-söz ustadının 200 illiyi münasibətilə



səh. 4

### Mədəniyyət Nazirliyi yanında İctimai Şura Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti ilə əməkdaşlıq edəcək

səh. 2




### Nizaminin 880 illiyinə həsr olunan poçt markası

səh. 8

# Türk Şurasının növbəti sammiti ölkələrimizi daha da yaxınlaşdıracaq



Bizim xalqlarımızı ortaq köklər bağlayır və Türk Şurası çərçivəsində fəal qarşılıqlı əlaqə saxlayırıq. Azərbaycanın rəhbərlik etdiyi Türk Şurasının dövlət başçılarının yaxın bir ayda növbəti Zirvə görüşü keçiriləcək. Biz sədrliyi Türkiyəyə ötürəcəyik. Əlbəttə, bu sammit ölkələrimizi daha da yaxınlaşdıracaq. Türkdilli dövlətlər arasında qarşılıqlı münasibətlər və əməkdaşlıq çərçivəsində həllini tələb edən məsələlər çoxdur.

Azərbaycan Prezidenti İlham Əliyev bu sözləri oktyabrın 28-də Qırğız Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kayrat Osmonaliyevin etimadnaməsini qəbul edərkən deyib.

Dövlət başçısı vurğulayıb ki, Azərbaycan Türk Şurasının üzvləri olan ölkələrin yaxınlaşması üçün həmişə böyük səy göstərib: "İkitərəfli münasibətlərə gəldikdə, biz əlaqələrin intensivləşəcəyinə ümid edirik. Hesab edirəm ki, mövcud potensial ötən illərdə tam həcmdə reallaşdırılmayıb. Buna görə, əlbəttə ki, iqtisadi-ticari sahəyə diqqət yetirmək lazımdır, bu sahədə əmtəə dövriyyəsini artıra bilərik. Bundan əlavə, bildiyiniz kimi, Azərbaycan ölkənin hüdudlarından kənarda fəal sərmayə qoyur. Biz Qırğızıstanda investisiya layihələrini ətraflı müzakirə edə bilərik və əlbəttə, beynəlxalq arenada qarşılıqlı dəstək ölkələrimizi həmişə yaxınlaşdırıb. Əminəm ki, biz gələcəkdə də BMT məkanında, İslam Əməkdaşlıq Təşkilatı və əlbəttə, Türk Şurası, MDB və digər təşkilatlar çərçivəsində bir-birimizi dəstəkləyəcəyik".

Prezident qeyd edib ki, İkinci Qarabağ müharibəsi dövründə biz Qırğızıstan xalqının dəstəyini hiss edirdik: "Vətəndaşlardan çoxlu müraciətlər olurdu, həmrəylik hissləri bildirilirdi, biz bunu çox yüksək qiymətləndiririk. Hazırda Azərbaycanın dağıdılmış ərazilərinin bərpası dövrüdür və biz keçmiş məcburi köçkünləri maksimum qısa müddətdə öz əzəli torpaqlarına qaytarmaq üçün fəal iş aparırıq".

Azərbaycanda diplomatik fəaliyyətə başlamasından məmnunluğunu vurğulayan Kayrat Osmonaliyev deyib: "Mənə epoxal əhəmiyyətli hadisələr dövründə Bakıya gəlmək şərəfi nəsib olub. Bu hadisələr nəticəsində tarixi ədalət və tarixi həqiqət zəfər çaldı. Qırğızıstan Azərbaycanın çətin günlərində həmişə bu çətinliklərə şərik olub, Azərbaycanın uğurlarına və nailiyyətlərinə sevinib".

Qırğız Respublikasının Prezidenti Sadır Japarovun salamlarını dövlətimizin başçısına çatdıran səfir bu il pandemiya dövründə Azərbaycanın ölkəsinə göstərdiyi köməyə görə təşəkkürünü bildirib. Diplomat Qırğızıstan dövlət başçısının Azərbaycan Prezidentini ölkəsinə səfərə dəvət etdiyini bildirib.

Prezident İlham Əliyev salamlarını və ən xoş arzularını həmkarına çatdırmağı xahiş edib və öz növbəsində qırğızıstanlı həmkarını onun üçün münasib olan istənilən vaxtda Azərbaycana dəvət etdiyini deyib.

"Azərbaycanda vaxtınızın yaxşı keçməsini arzu edirəm. Əminəm ki, bizim ölkəmizlə yaxından tanış olacaqsınız. Bildiyimə görə, siz artıq işğaldan azad edilmiş ərazilərdə olmusunuz, lakin qarşıda hələ yeni səfərlər olacaq. Buna görə düşünürəm ki, ölkəmiz haqqında tam təsəvvürünüz olacaq və bu, işinizdə sizə kömək edəcək" deyən Prezident İlham Əliyev səfirə fəaliyyətində uğurlar arzulayıb.

Səfir Kayrat Osmonaliyev Azərbaycan-Qırğızıstan münasibətlərinin inkişafında ulu öndər Heydər Əliyevin rolunu xüsusi vurğulayaraq gələn il ölkələrimiz arasında dostluq və əməkdaşlıq haqqında müqavilənin imzalanmasının 25-ci ildönümününün, 2023-cü ildə isə diplomatik münasibətlər yaradılmasının 30 illiyinin qeyd ediləcəyini bildirib.

Qeyd edib ki, ölkələrimiz BMT, MDB, Qoşulmama Hərəkatı çərçivəsində, Türk Şurası məkanında, həmçinin mənzil-qərargahları Bakıda yerləşən TÜRKPA və Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu formatında fəal əməkdaşlıq edir, bir-birini dəstəkləyir: "Təəssüf ki, həqiqətən, əldən buraxılmış imkanlar dövrü olub. Bu mənada biz çox şeyin əvəzini çıxmalıyıq".

## Xorvatiyanın xarici və Avropa işləri üzrə naziri ilə görüş

Mədəniyyət naziri Anar Kərimov Xorvatiyaya səfər çərçivəsində bu ölkənin xarici və Avropa işləri üzrə naziri Qordan Qrliç Radmanla görüşüb. Görüşdə Azərbaycan xarici işlər nazirinin müavini Elnur Məmmədov, ölkəmizin Xorvatiya Respublikasındakı səfiri Fəxrəddin Qurbanov da iştirak ediblər.



Dəvət üçün nazir Qordan Qrliç Radmana təşəkkürünü bildirən Anar Kərimov ikitərəfli əməkdaşlıqdan məmnunluğunu ifadə edib. Tərəflər energetika və informasiya texnologiyaları sahələrində əməkdaşlığın genişləndirilməsinə dair layihələrdən bəhs edib, turizm, mədəniyyət, gənclər və idman, eləcə də digər sahələr üzrə tərəfdaşlığın istiqamətlərindən söz açıblar.

Həmçinin ikitərəfli əməkdaşlığın perspektivlərinə və Hökumətlərarası Komissiyanın ikinci iclasının gündəliyinə dair fikir mübadiləsi aparılıb. Görüş zamanı işğaldan azad edilmiş ərazilərimizin minalardan təmizlənməsində Xorvatiyanın dəstəyindən söz açan Anar Kərimov bu sahədə aparılan işlərə görə qarşı tərəfə minnətdarlığını bildirib.

Anar Kərimov həmkarını Azərbaycanın BMT Sivilizasiyalar Alyansı ilə birgə təsis etdiyi "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyası ilə bağlı çağırışa qoşulmağa dəvət edib.

Görüş hər iki tərəfi maraqlandıran digər mövzuların da müzakirəsi ilə davam edib.

## Azərbaycan və Xorvatiya arasında mədəni əməkdaşlıq genişləndiriləcək

### Audiovizual sektordan kitab sənayesi və nəşriyyat işinədək bir çox sahələrdə imkanlar var

Xəbər verdiyimiz kimi, mədəniyyət naziri Anar Kərimovun rəhbərlik etdiyi nümayəndə heyəti "Azərbaycan Respublikası Hökuməti və Xorvatiya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlığı təşviq etmək məqsədilə Birgə Komissiya"nın iclasında iştirak etmək üçün Xorvatiyada səfərdə olub.



Səfər çərçivəsində Anar Kərimovun Xorvatiyanın mədəniyyət və media naziri xanım Nina Obulyen Korjineklə görüşü keçirilib.

Azərbaycan nümayəndə heyətini salamlamaqdan məmnunluğunu bildirən xorvatiyalı nazir iki ölkə arasında münasibətlərin, o cümlədən mədəni əlaqələrin inkişafına böyük önəm verdiklərini vurğulayıb. Qeyd edib ki, Xorvatiyada inkişaf etmiş mühüm sahələrdən olan audiovizual sektorun əsas prinsiplərini qarşı tərəflə bölüşməyə hazırdırlar. O, həmçinin 2021-ci ilin Xorvatiyada "Oxu ili" kimi qeyd olunduğunu diqqətə çatdıraraq, Azərbaycanla kitab sənayesi, nəşriyyat işi sahəsində əməkdaşlığın şaxələndirilməsi, eləcə də tərcümə sahəsinin gücləndirilməsinin əhəmiyyətini xüsusi qeyd edib.

Nina Obulyen Korjinek işğaldan azad olunmuş Azərbaycan ərazilərində bərpa və yenidənqurma işlərinin həyata keçirilməsində Xorvatiyadan olan mütəxəssislərin təcrübələrini bölüşməyə hazır olduqlarını deyib. O, söhbət zamanı həmçinin Azərbaycan Respublikası Prezidentinin təşəbbüsü ilə 2008-ci ildə irəli sürülən "Bakı Prosesi" platforması çərçivəsində keçirilən tədbirlərdə iştirakından məmnunluğunu ifadə edib.

Anar Kərimov öz növbəsində Azərbaycanla Xorvatiya arasındakı əməkdaşlığın bir çox sahədə uğurla davam etdiyini vurğulayaraq, beynəlxalq təşkilatlarda qarşılıqlı dəstək və mədəniyyət sahəsində əlaqələrin hər iki tərəf üçün önəmini qeyd edib. Nazir işğaldan azad olunmuş ərazilərimizin minalardan təmizlənməsində, habelə yenidənqurma və bərpa məsələlərində Xorvatiyanın ölkəmizə dəstək göstərmək niyyətini yüksək qiymətləndirib.

Mədəniyyət müəssisələri arasında əməkdaşlığın genişləndirilməsinin zəruriliyindən bəhs edən Anar Kərimov iki ölkənin milli kitabxanaları və dövlət muzeylərinin əlaqələrinin daha geniş vüsət alacağından əminliyini bildirib. Mədəni irsin qorunması sahəsində də Xorvatiyanın təcrübəsindən faydalanmağın əhəmiyyəti qeyd olunub.

Anar Kərimov Mədəniyyət Nazirliyi tərəfindən dünya təcrübəsinə əsaslanaraq mədəniyyət siyasətinin gücləndirilməsi və inkişaf etdirilməsi istiqamətində bir sıra mühüm işlərin görüldüyünü və bu kontekstdə Azərbaycan-Xorvatiya əməkdaşlığının da önəmli olduğunu deyib.

Nazir həmçinin dövlətimizin BMT-nin Sivilizasiyalar Alyansı ilə birgə təsis etdiyi "Mədəniyyət naminə sülh" (Peace4Culture) qlobal kampaniyası ilə bağlı çağırışa xorvatiyalı həmkarının da qoşulmasından məmnunluğunu vurğulayıb.

## Teatrların repertuarında Qələbəmizə həsr olunmuş əsərlər yer almalıdır

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev Azərbaycan Dövlət Akademik Musiqili Teatrının kollektivi ilə görüşüb.



44 günlük Vətən müharibəsinin ildönümünü yaşadığımız bu günlərdə yaradıcı kollektivlərin qarşısında duran mühüm vəzifələrdən, Ali Baş Komandanımızın rəhbərliyi ilə Ordumuzun əldə etdiyi Zəfərdən, ölməz şəhidlərimizin, qazilərimizin igidlik salnaməsindən söz açan Elnur Əliyev "yenilməz xalqın qüdrətli də mədəniyyəti olmalıdır" fikrini vurğulayaraq son vaxtlar Mədəniyyət Nazirliyi tərəfindən həyata keçirilən tədbir və layihələr barədə danışıb. Ölkə Prezidentinin sərəncamı ilə "Nizami Gəncəvi İli"nin ölkəmizdə və onun hüdudlarından uzaqlarda geniş qeyd olunmasının vətənimiz üçün nə qədər əhəmiyyətli bir hadisə olduğu diqqətə çatdırılıb.

Teatrların pandemiya dövründən sonrakı fəaliyyətinin nə qədər məsuliyyətli bir zamana gəlib çatdığını vurğulayan Elnur Əliyev iki ilə yaxın bir müddətdə teatrdan ayrı düşən tamaşaçıların yenidən teatrlara cəlb edilməsi, repertuar siyasətində tarixi Qələbəmizə həsr olunmuş əsərlərin, xalqı düşündürən, onları narahat edən, günümüz üçün aktual olan mövzuların daha geniş miqyasda yer alacağının vacibliyini qeyd edib. Qələbəmizdən bəhs edən əsərlərin istər ölkə daxilində, istərsə də xaricdə təqdim olunması məsələsi də müzakirə olunub.

Görüşdə çıxış edən Akademik Musiqili Teatrın direktoru, Əməkdar incəsənət xadimi Əliqismət Lalayev, Xalq artistləri Afaq Bəşirqızı, Fatma Mahmudova, Əməkdar artist Əkbər Əlizadə müzakirə olunan məsələlər barədə fikirlərini bildiriblər.

Nazirin birinci müavini teatrda rejissor Samir Qulamovun quruluşunda hazırlanan, Zəfər Gününə həsr olunmuş "Bir nəfəs qədər" tamaşasının məşqlərini izləyib, sənət adamları ilə səmimi söhbət edib, teatrın texniki-istehsalat sahəsi, ayrı-ayrı sexlərin fəaliyyəti ilə də tanış olub.

## Ermənistanın işğal dövründə törətdiyi cinayətlərdən bəhs edən yeni sayt

Oktyabrın 28-də Bakı Kitab Mərkəzində Heydər Əliyev Fondunun dəstəyi ilə hazırlanan www.armeniancrimes.com resurs bazasının təqdimatı olub.

Portalın işçi qrupunun üzvü Aliyə Məmmədli bildirib ki, hazırlanan resurs bazasının məqsədi Azərbaycanın otuz ilə yaxın Ermənistanın işğalı altında olmuş ərazilərində tariximizə, mülki əhalimizə, mədəni irsimizə, təbiətimizə qarşı törətdikləri cinayətləri dünya ictimaiyyətinə çatdırmaqdır. Təqdim olunan məlumatların hər biri yerli və beynəlxalq mənbələrə əsaslanaraq, konkret faktlarla çatdırılır.

Qeyd olunub ki, portal Ermənistan tərəfindən tarixən ölkəmizə və xalqımıza qarşı törədilən cinayətlər barədə daha geniş faktlar əsasında mütəmadi yenilənəcək. "Erməni vandalizmi" bölməsində dağıdılıb talan edilmiş tarix-mədəniyyət nümunələri və təbii ehtiyatlar haqqında məlumatlar 7 kateqoriyada cəmlənib. Bu kateqoriyalarda ermənilərin Azərbaycanın mədəni irsinə qarşı həyata keçirdikləri vandalizm siyasəti ilə yanaşı, işğal altında olmuş ərazilərin tarixi, coğrafiyası, təbiəti, işğaldan əvvəl həmin rayonlarda mövcud olan infrastruktur və həyat tərzi, eləcə də işğaldan sonra həmin bölgələrdə ermənilərin törətdikləri vəhşiliklər haqqında məlumatlar verilir.

Portalda ermənilərin Azərbaycana qarşı törətdikləri cinayətləri dünya ictimaiyyətinə diqqəti cəlb edən üsullarla çatdırmaq üçün hazırlanmış posterlər də yer alıb. Ayrı-ayrı məlumatlarla yanaşı, ingilis dilində alt yazı və musiqi müşayiəti ilə qısa videoçarxlar da hazırlanıb.

Tədbirdə Milli Məclisin deputatı Qənirə Paşayeva çıxış edərək ermənilərin xalqımıza qarşı törətdiyi cinayətlərin, vandalizm aktlarının dünyaya çatdırılmasında bu kimi portalların yaradılmasının əhəmiyyətindən söz açıb.

## Pakistan universitetində Vətən müharibəsinə həsr olunmuş sərgi

Azərbaycanın Pakistandakı Səfirliyinin təşkilatçılığı ilə bu ölkənin Müasir Dillər Universitetində tələbələr üçün Vətən müharibəsinə həsr edilmiş fotosərgi təşkil olunub.

Sərgidə 30 ilə yaxın sürən erməni işğalının nəticələri, 27 sentyabr 2020-ci il tarixində Ermənistanın törətdiyi təxribatlara cavab olaraq Azərbaycanın özünümüdafiə hüququndan istifadə edərək əks-hücum əməliyyatlarına başlaması, 44 günlük müharibədə torpaqlarımızın işğaldan azad olunması, azad edilən torpaqlarda aparılan bərpa və quruculuq işləri ilə bağlı fotoşəkillər yer alıb.

Sərginin açılışından sonra səfir Xəzər Fərhadov universitetin tələbələri üçün "Azərbaycan-Pakistan münasibətləri və Azərbaycanın Vətən müharibəsi" mövzusunda mühazirə oxuyub. Diplomat Azərbaycan və Pakistanın bir-birini həm ikitərəfli formatda, həm də beynəlxalq müstəvidə hər zaman dəstəklədiyini vurğulayıb. O, Pakistanın Vətən müharibəsində Azərbaycana göstərdiyi siyasi və mənəvi dəstəyi də xüsusi qeyd edib və Pakistan Hökumətinə, Parlamentinə və xalqına təşəkkürlərini çatdırıb.

Səfir müharibədən sonra Qarabağda aparılan bərpa-quruculuq işlərindən də bəhs edib, tələbələri maraqlandıran sualları cavablandırıb.

## İctimai Şura Mədəniyyət və İncəsənət Universiteti ilə əməkdaşlıq edəcək

Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın sədri Gəray Əlibəyov və nazirliyin Sənəd və vətəndaşlarla iş şöbəsinin müdiri İsmayıl Əbdüləzimov Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova ilə görüşüblər.

Görüşdə universitetin prorektoru, professor Gülşən Əliyeva, kafedra müdiri, Əməkdar artist Azad Şükürov, Xalq artisti Vidadi Həsənov da iştirak ediblər.

Görüşdə tədbirlərin, layihələrin həyata keçirilməsi üçün Mədəniyyət Nazirliyi və Mədəniyyət və İncəsənət Universitetinin struktur bölmələri, tabe təşkilatları ilə əməkdaşlıq edilməsi qərara alınıb. Mədəniyyət Nazirliyi yanında İctimai Şura ilə ADMİU-nun birgə fəaliyyətinin möhkəm zəmin üzərində qurulması məqsədilə əməkdaşlıq müqaviləsinin imzalanması məsələsi müzakirə olunub.

Eyni zamanda 15-20 nəfərdən ibarət könüllülərin İctimai Şuranın fəaliyyətinə cəlb edilməsi və İctimai Şura üzvlərinin universitetin keçirdiyi tədbirlərdə iştirakı ilə bağlı fikir mübadiləsi aparılıb.

## Yuğ teatrı mövsümə premyera ilə başlayır

Yuğ Dövlət Teatrı yeni mövsümə premyera ilə başlayır. Teatr oktyabrın 29-da rumın dramaturqu Matey Vişnekin "Qoca kloun tələb olunur" pyesi əsasında hazırlanmış "Kloun Z" tamaşasını təqdim edəcək. Tamaşa Yuğ Teatrının müvəqqəti məkanında – A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının kiçik səhnəsində göstəriləcək.

Feeriya-makabr janrında hazırlanmış tamaşanın quruluşçu rejissoru Mikayıl Mikayılov, quruluşçu rəssamı Umay Həsənovadır. Səhnə əsərində Natəvan Qeybani (Sarı), Zümrüd Qasımova (Qırmızı) və Təranə Ocaqverdiyeva (Yaşıl) çıxış edirlər.

Rejissor Mikayıl Mikayılov M.Vişnekin əsərinə fərqli quruluş verib, əsərdən fərqli olaraq, tamaşada klounlar qadınlardır.

"Kloun Z" tamaşasının növbəti nümayişi oktyabrın 31-də olacaq.

əvvəli səh. 1-də

# İqtisadi tərəqqi ilə mədəni inkişafın ahəngdarlığını necə təmin etməli?

## Azərbaycan İnvestisiya və Mədəniyyət Sammitində müzakirə olunub

Sammitin açılışında çıxış edən iqtisadiyyat naziri Mikayıl Cabbarov qeyd edib ki, Azərbaycan işğaldan azad edilmiş ərazilərdə yenidənqurma işlərinə tərəfdaş ölkələrdən investisiyaların cəlb olunmasında maraqlıdır. Biz bu sırada İslam Əməkdaşlıq Təşkilatına (İƏT) üzv dövlətlərin sahibkarlarını da görmək istəyirik.

Mikayıl Cabbarov İƏT-ə üzv ölkələri ortaq mədəni və dini dəyərlərin birləşdirdiyini, ölkəmizin təşkilatda üzvlüyə böyük önəm verdiyini deyib. Bildirib ki, ötən illər ərzində təşkilat çərçivəsində Azərbaycana qarşı Ermənistanın işğalçılıq siyasəti ciddi şəkildə qınanıb, ölkəmizin haqlı mövqeyini müdafiə edən qətnamələr qəbul edilib. İƏT təkcə siyasi yox, həm də müsəlman ölkələri arasında iqtisadi-ticarət, investisiya, humanitar, elmi-texniki əməkdaşlığı təşviq edir. Vurğulanıb ki, Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti təşkilata üzv ölkələr arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi və Azərbaycanın, o cümlədən Qarabağ və Şərqi Zəngəzur regionlarımızın investisiya potensialının tanıdılması baxımından əlverişli platformadır.

Oktyabrın 26-da Azərbaycan və Türkiyə dövlət başçılarının iştirakı ilə Füzuli Beynəlxalq Hava Limanının açıldığını vurğulayan nazir Qarabağın bərpasının böyük iqtisadi önəm kəsb etdiyini, burada geniş regional inteqrasiya imkanlarını qeyd edib. "Hökumətimiz bu bölgəyə hazırda böyük sərmayələr yatırır. İşğaldan azad edilmiş ərazilərimizin iqtisadi reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-tranzit dəhlizlərinin imkanlarından faydalanmaq ölkəmizin inkişafına böyük təkan verəcək", – deyə o əlavə edib.

Mikayıl Cabbarov dövlətimizin başçısı tərəfindən təsdiq edilmiş 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair



Milli Prioritetlərə əsasən, hazırda 2022-2026-cı illər üzrə ölkəmizin ortamüddətli strateji inkişaf strategiyasının hazırlandığını və gələcəkdə istehsal fəaliyyətinə, investisiya alətlərinə, turizm sahəsinə və işğaldan azad edilmiş ərazilərə yeni vergi güzəştlərinin verilməsi məsələsinə baxılacağını diqqətə çatdırıb.

Açılış mərasimində Türkiyə Prezidentinin Maliyyə Ofisinin müdiri Göksel Aşan, Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov, Türkiyə Prezidenti yanında İnvestisiya Ofisinin rəhbəri Burak Dağlıoğlu, Dünya Etnoidman Konfederasiyasının prezidenti Bilal Erdoğan, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev, Türkiyənin sənaye və texnologiyalar nazirinin müavini Çetin Ali Dönməz, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (İRCİCA) baş katibi Mahmut Erol Kılıç, KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov və İCYF-nin prezidenti Taha Ayhan çıxış ediblər. Malayziyanın sabiq Baş naziri Mahathir Mohamad isə sammit iştirakçılarına videomüraciət edib.

Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Erdoğan çıxışında vurğulayıb ki, Azərbaycan ötən il qazandığı tarixi Qələbə ilə dünya iqtisadiyyatına təsir edəcək bir bölgəyə çevrilib: "Qarabağın turizm potensialının nə qədər yüksək olduğunu görürük. İnanıram ki, bu sammitə gələn investorlar bu potensialın üzə çıxarılmasında, İslam dünyasının da əməkdaşlıq çərçivəsində çalışmasına vasitəçi olacaq. Qarabağ Zəfəri sübut etdi ki, qardaş və dost ölkələrin bir-birlərinin yanında olması hər zaman müsbət nəticələr gətirməkdədir. Türkiyə-Azərbaycan arasındakı qarşılıqlı dəstəyin əhəmiyyətini gördük və ümid edirəm, bu birlik bütün İslam Əməkdaşlıq Təşkilatı ölkələri arasında istər iqtisadiyyat, istərsə də mədəniyyət baxımından daha uğurlu olacaq".

Bilal Erdoğan bildirib ki, bu il, eyni zamanda Nizami Gəncəvinin 880-ci ildönümüdür. Bu, bizə bir daha təkcə Şuşanın, Gəncənin, Qarabağın deyil, bütün Azərbaycanın mədəniyyət beşiyi kimi qiymətli olduğunu xatırladır. İşğaldan azad olunmuş ərazilərdə işlərə tarixi-mədəni yerlərin bərpası ilə başlanılması bu baxımdan çox dəyərlidir.

Azərbaycan İnvestisiya və Mədəniyyət Sammiti sadaladığım bu üç mühüm geosiyasi reallıqlar, iqtisadi perspektivlər və mədəni xüsusiyyətlər ilə bağlı məsələləri öz gündəliyində əhatə edəcək.

Bu fikri isə KOBİA İdarə Heyətinin sədri Orxan Məmmədov vurğulayıb. "Xarici investisiyalar təkcə ölkəyə kapital deyil, innovativ həll yolları, texnologiyalar və yeni idarəetmə yanaşmaları gətirir. Ölkəmizdə son illərdə biznesin inkişafı, əlverişli investisiya mühitinin təmin edilməsi, dövlətin biznesə dəstək mexanizmlərinin genişləndirilməsi, eləcə də bu sahədə qabaqcıl innovativ idarəetmə mexanizmlərinin tətbiqi nəticəsində özəl sektor subyektlərinin bazası genişləndirilib və ölkənin beynəlxalq səviyyədə investisiya imici yüksəlib. Ümidvaram ki, sammit çərçivəsində yeni biznes əlaqələrinin yaradılması, investisiya imkanlarının müəyyənləşdirilməsi və iqtisadi fəaliyyət gündəliyimizin genişləndirilməsi baxımından uğurlu nəticələr əldə ediləcək", - deyə o qeyd edib.

Sammitin ilk günü "Qarabağa investisiya qoyuluşu: perspektivlər", "İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin iqtisadi və ticarət perspektivləri: çağırışlar və imkanlar" və "PostCOVİD dövründə iqtisadiyyatın bərpası üçün güclü startap ekosistemi" mövzularında panel müzakirələr təşkil olunub. Azərbaycan və İƏT ölkələrindən dövlət rəsmilərinin, iş adamlarının və startapçıların iştirakı ilə keçirilmiş panellərdə mövzu ətrafında çıxışlar edilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

İştirakçılar tərəfindən xüsusi maraqla qarşılanan "Qarabağa investisiya qoyuluşu: perspektivlər" mövzusunda paneldə Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin iqtisadi və investisiya potensialı, 30 ilə yaxın müddət ərzində Ermənistan tərəfindən dağıdılmış və talan olunmuş ərazilərimizdəki vəziyyət, hazırda Azərbaycan dövləti tərəfindən həyata keçirilən quruculuq və bərpa işləri diqqətə çatdırılıb.

Tədbir çərçivəsində, həmçinin İƏT ölkələrindən 50 yeni startapın təqdim olunduğu sərgi açılıb. Sərgidə qida, kənd təsərrüfatı, "yaşıl" iqtisadiyyat, maliyyə texnologiyaları, onlayn tətbiqlər, ətraf mühit, yenilənən enerji, ağıllı texnologiyalar, hava nəqliyyatı, logistika və s. sahələr üzrə startap layihələri təqdim olunur. Sərginin məqsədi İƏT ölkələrindən olan gənc sahibkarların və startapların dünya miqyasında tanınmasına töhfə vermək, startap layihələrin investorlar tərəfindən maliyyələşdirilməsinə dəstək göstərməkdir. Ümumilikdə 61 ölkədən 500 startapçı müraciət edib, onların arasından 50 startap seçilib.

# "Ölkəmizdə multikultural cəmiyyətin formalaşmasında Nizaminin də rolu var"

## Sammitin ikinci günü panel iclaslarla davam edib




Azərbaycan İnvestisiya və Mədəniyyət Sammitinin ikinci günü, oktyabrın 28-də "Baku Marriott Boulevard Hotel"də Mədəniyyət Nazirliyi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin birgə təşkilatçılığı ilə "Regionun əsas sosial və iqtisadi çağırışları: Nizami Gəncəvi üzrə baxış" mövzusunda panel iclası keçirildi.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Himayəçilər Şurasının sədr müavini Rəfi Qurbanov iclası açaraq qonaqları salamladı.

### XII əsrlə müasir dövrü birləşdirən universal mənəvi körpü

Tədbirdə çıxış edən mədəniyyət nazirinin birinci müavini, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin icraçı direktoru Elnur Əliyev Azərbaycan xalqı üçün Nizami Gəncəvi fenomeninin əhəmiyyətini vurğuladı. Dedi ki, Nizami Gəncəvini digər şairlərdən fərqləndirən bir sıra xüsusiyyətlər var. Onun ən böyük üstünlüyü əsərlərinin bütün bəşəriyyətə yönəlməsidir: "Dahi şair əsərlərində insan cəmiyyətinə ensiklopedik yanaşma nümayiş etdirib. Azərbaycanda multikultural bir cəmiyyətin yetişməsində, şübhəsiz ki, Nizami Gəncəvinin də rolu var. Bildiyiniz kimi, Nizami Gəncədə doğulub, orada yaşayıb və vəfat edib. O, Gəncədən kənara çıxmamasına baxmayaraq, əsərlərində böyük bir coğrafiyanı əhatə edib. Məsələn, "İsgəndərnamə" poemasında yaşadığı məkandan çox-çox uzaq bir məmləkətdə bir padşahı özünə obraz seçməsi və onu ideal bir hökmdara çevirməsi. Yaxud hərəsi bir xalqı təmsil edən insanların yer aldığı "Yeddi gözəl" əsəri".

Nazirin birinci müavini bildirdi ki, bəzi şairlər gözəlliyi zahirən təsvir ediblər. Amma Nizami Gəncəvidə gözəllik xoşxasiyyətlilik, təbiəti, insanları, bütün nemətləri sevmək mənasını verir. Nizami insanın gözəl olmasını onun şəxsi işi kimi görür: "Nizaminin əsərlərini Azərbaycan xalqı tərcümələr vasitəsilə oxuyur. Həmin dövrdə fars dili ədəbi dil idi. Dahi şair də əsərlərini məhz bu dildə qələmə alıb. Nizami Gəncəvi XII əsrlə müasir dövrü birləşdirən universal mənəvi bir körpüdür. Bugünkü prizmadan baxsaq, Nizami peşəkar bir ssenaristdir. Mən bir azərbaycanlı kimi fəxr edirəm ki, bizim ədəbi fikrimizin Nizami kimi zirvəsi var".

### "Nizami bu bölgənin kimliyini bildirən şəxsiyyətdir"

Kəşmir Universitetinin (Hindistan) islamşünaslıq üzrə professoru Nasim Əhməd Şah Nizami Gəncəvinin müdrikliyinin bütün dövrləri əhatə etdiyini bildirdi: "Mən alimlərə müraciət edirəm ki, Nizaminin əsərlərinə, düşüncələrinə yenidən baxılsın. Onun düşüncələrində yenidən nələrisə kəşf etmək olar".

Hindistanda da Nizami yaradıcılığına böyük dəyər verildiyini söyləyən alim Nizaminin çoxsaylı əlyazmalarının bu gün də Hindistanın kitabxanalarında, elmi mərkəzlərində qorunub saxlanıldığını diqqətə çatdırdı.

Kəşmir Universitetinin professoru Qulam Nabi Xaki çalışdığı təhsil ocağında tələbələrin Nizaminin əsərləri və onunla bağlı araşdırmalarla tanış olduqlarını bildirdi: "Biz universitet olaraq Nizami əsərlərini gənclərimizə əlçatan etmək üçün çalışırıq. Nizami Gəncəvi bu bölgənin kimliyini bildirən şəxsiyyətdir. Çalışmalıyıq ki, Nizami irsini gələcək nəsillərə ötürək. Nizami kimi dahi şairlər, mütəfəkkirlər böyük dəyərlər formalaşdırırlar. İnanıram ki, Nizami dəyərlərindən bütün dünya faydalanacaq".

İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırmalar Mərkəzinin (İRCİCA, Türkiyə) rəhbəri, professor Mahmud Erol Kılıç vurğuladı ki, Nizami Gəncəvi kimi böyük şəxsiyyətləri tədqiq etmək, ideyalarını yaymaq çox vacibdir: "Biz mükəmməl cəmiyyət yetişdirmək istəyiriksə, özümüzdə dəyişiklik etməliyik. Nizami yaradıcılığını uşaqlara məktəbdə mükəmməl öyrətmək lazımdır. Çünki onun yazdıqları başdan-başa həyat dərsi, ibrətamiz bir mənbədir. Nizami Gəncəvi, Şəms Təbrizi, Seyid Yəhya Bakuvi kimi bir çox mütəfəkkirlər var ki, onları mütləq kəşf etmək lazımdır. Bu dövrdə biz yenidən Nizami Gəncəvilər yetişdirmək haqqında düşünməliyik".

### "Ölkələrin uğurlarını fərqləndirən onların mədəniyyətidir"

Həmin gün sammit çərçivəsində "Gələcək sərmayələrdə mədəniyyət müstəvisi" mövzusunda daha bir panel iclası gerçəkləşdi.

Giriş sözü ilə çıxış edən İslam Əməkdaşlıq Təşkilatı Gənclər Forumunun (İCYF) baş məsləhətçisi Fadila Grine qonaqları salamladı, məruzəçiləri təqdim etdi.

Mədəniyyət nazirinin birinci müavini Elnur Əliyev qeyd etdi ki, mədəniyyət bizi beşikdən məzara kimi müşayiət edən faktordur: "İnanırıq ki, mədəniyyət, sadəcə, mahnı, şeir, ədəbiyyat, teatr, kinodan ibarət deyil. Bunlar mədəniyyətin konkret bir təzahürüdür. Bugünkü iclasın əsas məqsədi mədəniyyətlə iqtisadiyyatın əlaqəsini vurğulamaqdır. Hər bir ölkənin iqtisadi uğuru həm də onun mədəniyyəti ilə bağlıdır. Çünki ölkənin iqtisadiyyatı şirkətlərdən, banklardan ibarətdir. Şirkət və bankların fəaliyyəti isə öz növbəsində orada dominant olan mədəniyyətə bağlıdır. Demək olar ki, bütün ölkələr bu sahə üzrə eyni qaydanı tətbiq edir. Lakin eyni qaydaları tətbiq edən ölkələrin uğurları fərqlidir. Çünki bu qaydalar müxtəlif mədəniyyətlər çərçivəsində tətbiq olunur. Bu ölkələrin də uğurlarını fərqləndirən onların mədəniyyətidir. Bu baxımdan Azərbaycan Mədəniyyət Nazirliyi olaraq istəyirdik ki, mədəniyyətimiz də daha geniş anlamı ifadə etsin. Azərbaycan cəmiyyəti bizi Qələbəyə aparan mədəniyyəti yalnız müharibə zamanı yox, gündəlik həyatda da tətbiq etsin. Biz istəyirik ki, yalnız müharibə vaxtı öz bayrağımız, dəyərlərimiz, mədəniyyətimiz ətrafında səfərbər olmayaq. İndi sülh zamanında dəyərlərimiz ətrafında səfərbər olmalıyıq. Biz Azərbaycanın uğurlu gələcəyini təmin etməliyik. Yeganə çıxış yolu məsuliyyətli mədəniyyəti tətbiq etməkdir. Bunu tətbiq etmək üçün kifayət qədər dəyərli mədəni irsimiz var. Özümüz dahilərimizə, dəyərlərimizə sahib çıxsaq, ölkəmizi gələcəkdə də uğurlu edə bilərik. Biz heç kimin gözləmədiyi halda Qələbə qazandıq. Bu, demək olar ki, bizim mədəniyyətimizin qələbəsidir. Bizim mədəniyyətimizdi ki, belə Ali Baş Komandan, Vətən uğrunda canını fəda edən oğullar yetişdirib. İstəyirik ki, cəmiyyət olaraq bu işdə vətəndaşlarımız Mədəniyyət Nazirliyinə dəstək versinlər".



"Türk Hava Yolları" (THY) baş direktorunun insan resursları üzrə köməkçisi Abdulkərim Çay bildirdi ki, təmsil etdiyi qurumun ən böyük uğuru insan resurslarıdır: "Biz dünyada uçuş üçün ən çox istifadə edilən hava yolu şirkətiyik. Şirkətimizdə 140-dan çox fərqli millətdən olan insan çalışır. Pandemiya dövründə bütün dünyada qazanc əldə edən yeganə hava yolu şirkəti Türk Hava Yolları oldu. Bunun ən böyük səbəbi insan resursları və onların sahib olduğu mədəniyyətdir".

Azərbaycan Respublikası Beynəlxalq İnkişafa Yardım Agentliyinin (AİDA) rəisi Elməddin Mehdiyev agentlik haqqında məlumat verdi. Bildirdi ki, ölkələr arasında siyasi, iqtisadi, mədəni və digər sahələrdə beynəlxalq əməkdaşlığın, sülhün və bərabərliyin gücləndirilməsi məqsədilə xarici dövlətlərə Azərbaycan xalqının yardımını çatdıran AİDA respublikamızın xarici siyasət prioritetlərinin uğurla həyata keçirilməsinə xidmət edir.

Keçmişdə insanların fərqli sahələrə investisiya yatıranda ola bilsin ki, mədəni aspektləri gözardı etdiyini vurğulayan E.Mehdiyev iqtisadi səbəblərdən fərqli olaraq mədəni səbəblərin investisiyanın uğur qazanmasına mütləq təsir edəcəyinə inamını bildirdi.

Tatarıstan İnvestisiya İnkişafı Agentliyinin (Rusiya) nümayəndəsi Alina Ravzutdinova ölkəsinin mədəni həyatı haqqında danışdı. O, Tatarıstanda 170-dən çox ölkənin vətəndaşlarının sülh şəraitində yaşadığını bildirdi.

Sonda mövzu ətrafında tədbir iştirakçılarının sualları cavablandırıldı.

Qeyd edək ki, oktyabrın 29-da isə sammit iştirakçıları Şuşa və Füzuli şəhərlərinə səfər edəcək, Gəncə şəhərində Nizami Gəncəvinin 880 illiyi ilə bağlı mədəni tədbirlərdə iştirak edəcəklər.

**Nurəddin MƏMMƏDLİ**

# "Şəhidlik əbədi zirvədir" kitabı Moskvada təqdim olunub

Rusiyadakı Azərbaycan diasporunun fəallarından biri, iqtisadiyyat elmləri namizədi, dosent Aybəniz Rüstəmovanın "Şəhidlik əbədi zirvədir" ("Stalo veçnoy slavoy qeroyskaya smert") kitabının təqdimatı keçirilib. Təqdimatda Azərbaycanın Rusiyadakı Səfirliyinin, Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) nümayəndələri, rusiyalı ziyalılar iştirak ediblər.



Kitabda 44 günlük Vətən müharibəsi şəhidləri barədə məlumatlar yer alıb. Tədbiri Rusiya Vəkillər Gildiyasının vitse-prezidenti İlqar Hacıyev açaraq qeyd edib ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu torpaqlarımızı düşmən işğalından azad edib. Bu tarixi Qələbəyə görə şəhidlərimizə əbədiyyən borcluyuq.

Kitabın həlalik yalnız birinci cildinin nəşr olunduğunu bildirən müəllif Aybəniz Rüstəmova deyib: "Birinci cilddə Qarabağ uğrunda canından keçən şəhidlərimizdən 577-si haqqında məlumat yerləşdirilib. Bu kitabın növbəti cildlərində hissə-hissə üç minə yaxın şəhidimiz haqqında ətraflı məlumat verəcəyik. Ümumilikdə beş cildlik kitab nəşr etməyi planlaşdırırıq. Harada yaşamağımızdan asılı olmayaraq, biz tarixini, Qarabağ uğrunda şəhid olan soydaşlarımızı unutmamalı, onların adlarını gələcək nəsillər üçün əbədiləşdirməliyik".

Moskvadakı Dövlət İdarəetmə Universitetinin professoru Sergey Qarnik Qarabağ müharibəsinin şəhidlərindən bəhs edən kitabın orijinal xatirə janrında yazıldığını bildirib: "Kitabda hər bir şəhid haqqında ətraflı məlumat yer alıb. Müəllif kitabda Azərbaycanda Vətəni üçün canından keçməyə hazır olan gənc nəslin yetişdiyini qürurla ifadə edə bilib. Sözsüz ki, bu, Azərbaycanda gənclərin vətənpərvərlik ruhunda tərbiyəsi üçün görülən işlərin bəhrəsidir".

Rusiyanın Xalq rəssamı Nikas Safronov, Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun dosenti Abuzər Bağırov, rəssam Rauf Məmmədov, RAGB-nin məsul katibi Ceyhun Hüseynov, politoloq Ruslan Səfərov və başqaları Vətən müharibəsində Azərbaycan xalqının göstərdiyi qəhrəmanlıqlardan danışıblar.

# "Nizami-880" adlı musiqili ədəbi-bədii kompozisiya təqdim edilib

Gəncə Regional Mədəniyyət İdarəsinin tabeliyində fəaliyyət göstərən Gəncə şəhər Uşaq incəsənət məktəbi oktyabrın 27-də "Nizami – 880" adlı musiqili ədəbi-bədii kompozisiya təqdim edib.




Əvvəlcə məktəbin direktoru Ramail Atayev çıxış edərək bildirib ki, "Nizami Gəncəvi İli" çərçivəsində Gəncə Regional Mədəniyyət İdarəsinin mədəniyyət müəssisələrində silsilə tədbirlər keçirilir. Şəhər Uşaq incəsənət məktəbi də dahi şairin yubileyinə töhfə hazırlayıb.

Ssenari müəllifi Günay Hüseynli, musiqi tərtibatçısı Məsud Kərimov olan kompozisiyada Nizami Gəncəvinin sözlərinə yazılmış mahnı və romanslar ifa olunub, şairin qəzəlləri oxunub. Müəllimlərdən Gülmira Həmzəyeva Üzeyir Hacıbəylinin "Sənsiz", "Sevgili canan", Fikrət Əmirovun "Gülüm" romanslarını, Ədilə Hüseynova "Dilkeş", Cəvahir İsmayılova "Mahur", Zaur Dadaşov "Şur", "Şikəsteyi-fars" təsniflərini ifa ediblər.

Şagirdlərdən Aysu Abbasova və Murad Məmmədlinin (tar) ifasında Qara Qarayevin "Yeddi gözəl" baletindən "Aişənin rəqsi", "Vals" təqdim edilib. Məktəbin "Gəncə qönçələri" rəqs ansamblı (bədii rəhbər Xaliq Əliyev) lirik rəqs ifa edib. Gəncə Dövlət Kukla Teatrının rəssamı və aktyoru Məhəmməd Hacıyev Nizami Gəncəvi rolunda səhnəyə çıxıb.

Sonda Gəncə Regional Mədəniyyət İdarəsinin rəisi Vasif Cənnətov kompozisiyanın hazırlanmasına görə məktəbin rəhbərliyinə, pedaqoji kollektivinə minnətdarlığını bildirib.

# "Qarabağ inciləri" – regional idarənin yeni layihəsi

Bərdə Regional Mədəniyyət İdarəsinin Tərtər nümayəndəliyi və rayon Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "Qarabağ inciləri" layihəsinə başlanılıb. Layihə işğaldan azad olunmuş bölgələrin tarixi, coğrafiyası, flora və faunası, adət-ənənələri, şifahi xalq yaradıcılığı və tanınmış şəxsiyyətlərini təbliğ etmək məqsədi daşıyır.

Layihə üzrə "Qarabağın tarixi şəxsiyyətləri" adlı ilk mövzu dahi bəstəkar, Azərbaycan professional musiqisinin banisi Üzeyir Hacıbəyliyə həsr olunub.

Regional idarənin Tərtər rayonu üzrə nümayəndəsi Ceyhun İsmayılzadə və Heydər Əliyev Mərkəzinin direktoru Səlimə Yusibova bölgənin tanınmış şəxsiyyətləri haqqında söz açıblar. Sonda Ü.Hacıbəyliyə həsr edilmiş videoçarx göstərilib, bəstəkarın mahnıları ifa olunub.

# Ermənistanın Bərdədə törətdiyi qanlı terrordan bir il ötdü

Vətən müharibəsi dövründə Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərində törədilən qanlı terrordan bir il ötdü.

2020-ci il oktyabrın 28-də Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə şəhərində dinc sakinlərin sıx hərəkətdə olduğu və ticarət obyektlərinin yerləşdiyi əraziyə beynəlxalq hüquqla qadağan olunmuş kasetli bombalardan istifadə olunmaqla raket zərbələri endirilib. Nəticədə aralarında uşaq və qadınlar da olmaqla, 21 dinc sakin həlak olub, 70-dən çox şəxs yaralanıb. Şəhərdə yerləşən evlərə, mülki infrastruktur obyektlərinə və nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Bundan bir gün əvvəl – oktyabrın 27-də təcavüzkar Ermənistan silahlı qüvvələri tərəfindən Bərdə rayonunun Qarayusifli kəndi ağır artilleriyadan atəşə tutulmuşdu, nəticədə 5 dinc sakin həlak olmuşdu. Vətən müharibəsinin gedişində – 5, 8, 27, 28 oktyabr və 7 noyabrda Bərdə rayonunun müxtəlif silahlardan, raket və qadağan olunmuş kasetli bombalardan atəşə tutulması nəticəsində ümumilikdə 29 rayon sakini həlak olub, 112 nəfər yaralanıb.



Bərdə terroru zamanı həlak olan sakinlərdən biri də Leyla Mustafayevadır. Qızı Sevinc Mustafayeva bildirib ki, o, birinci raket düşəndən sonra insanlara kömək üçün evdən küçəyə qaçarkən ikinci raketin partlaması nəticəsində həlak olub: "Anam darvazadan çıxan zaman ikinci raket partlayıb. Qəlpələr anamın qolunu kəsmiş, kürəyinə, ürəyinə girmişdi. Biz Bərdədə ikinci Xocalı faciəsini yaşadıq. Bərdə terroru XXI əsrdə olan ikinci Xocalı faciəsi idi. Avtomobildə yananlar, başı bədənindən ayrılanlar... Çox dəhşətli, çətin, ağır günlər idi. Evimiz də dağılmışdı... Hələ də yaramız sağalmır. Evimiz də, bütün dağıntılar da düzələ bilər, amma ruhumuzun dağıntıları hələ də qalmaqdadır".

Qeyd edək ki, Ermənistan silahlı qüvvələri 44 günlük müharibə zamanı Bərdə ilə yanaşı, Azərbaycanın digər yaşayış məntəqələrini də atəşə tutub. Ermənistan tərəfindən 4, 5, 8, 11 və 17 oktyabr tarixlərində Gəncə şəhərinin raket atəşinə tutulması nəticəsində ümumilikdə 26 mülki şəxs həlak olub, 175 nəfər yaralanıb.

Düşmənin təcavüzkar hücumları nəticəsində Goranboy rayonunda 8 mülki şəxs, Tərtər rayonunda 17 nəfər, Beyləqan rayonunda 2 nəfər, Ağcabədi rayonunda 1 nəfər, Füzuli rayonunda 3 nəfər, Ağdam rayonunda 7 nəfər həlak olub. Mingəçevir şəhərində 4 nəfər, Daşkəsən rayonunda 1 nəfər, Cəbrayıl rayonunda (Cocuq Mərcanlı) 1 nəfər, Tovuz rayonunda 1 nəfər yaralanıb.

Vətən müharibəsinin gedişində Ermənistanın Azərbaycanın yaşayış məntəqələrini atəşə tutması nəticəsində 1-i körpə, 11-i uşaq, 27-si qadın, 54-ü kişi olmaqla, ümumilikdə 93 mülki şəxs həlak olub, 454 mülki vətəndaş yaralanıb.

Ermənistan Azərbaycanın cəbhə xəttindən uzaqda yerləşən şəhər və kəndlərinə qadağan olunmuş silahlarla hücum edərək dinc insanları məqsədli şəkildə öldürüb, bununla da, müharibə cinayəti və insanlıq əleyhinə cinayət törədib.

# Saz-söz ustadının 200 illiyi münasibətilə




Lənkəran Regional Mədəniyyət İdarəsi Lənkəran şəhər Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Aşıq Ələsgərin saz və söz dünyası" mövzusunda tədbir keçirilib. Astara rayon Mərkəzi Kitabxanasında Aşıq Ələsgərin 200 illik yubileyinə həsr olunmuş tədbirdə sənətkarın şeirlərindən nümunələr söylənilib, sözlərinə bəstələnmiş mahnılar ifa edilib. Sonda sərgiyə baxış olub.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər T.Hacıyev adına 2 nömrəli Uşaq musiqi məktəbində ustad aşığın 200 illiyinə həsr edilən tədbirdə təhsil ocağının müəllimlərinin ifasında saz havaları səsləndirilib. Samux şəhər Uşaq musiqi məktəbində təşkil edilən tədbirdə isə məktəbin müəllimləri Aşıq Ələsgərin sözlərinə yazılmış mahnıları ifa ediblər. Goranboy Dövlət Rəsm Qalereyasında "Qüdrətli söz ustadı Aşıq Ələsgər" adlı dəyirmi masa və sərgi təşkil edilib.

Kürdəmir Regional Mədəniyyət İdarəsi Kürdəmir Rayon Tarix-Diyarşünaslıq Muzeyi, Mədəniyyət Mərkəzi və MKS-nin birgə təşkilatçılığı ilə Aşıq Ələsgərin yubileyi ilə bağlı dəyirmi masa keçirilib.

Şəki Regional Mədəniyyət İdarəsi Şəki şəhər Baş Zəyzid kənd Sənətkarlıq evində "Haqq aşığı" adlı ədəbi-bədii axşam keçirilib. Balakən rayon Katex kənd folklor evinin təşkilatçılığı ilə "Aşıq Ələsgər poeziyası haqqında düşüncələr" başlığı altında dəyirmi masa gerçəkləşib.



İsmayıllı Regional Mədəniyyət İdarəsi İsmayıllı rayon Heydər Əliyev Mərkəzində Aşıq Ələsgərin yubileyinə həsr olunmuş tədbir keçirilib. Çıxışlardan sonra saz-söz ustadı ilə bağlı sənədli film nümayiş etdirilib. Qəbələ rayon MKS-nin Zalam kənd kitabxanasında keçirilən tədbirdə oxucular Aşıq Ələsgərin şeirlərini səsləndiriblər.

Şəmkir Regional Mədəniyyət İdarəsi Şəmkir rayon MKS-nin Oxuculara xidmət şöbəsində "Saz-söz ustadı" başlığı altında ədəbi-bədii gecə keçirilib.

# Mədəniyyət müəssisələrindən qısa xəbərlər

Biləsuvar Regional Mədəniyyət İdarəsinin rəisi Əlisultan Sadıxov Salyan Dövlət Rəsm Qalereyasının əməkdaşları ilə görüşüb.

Gəncə Regional Mədəniyyət İdarəsi Samux rayon MKS-nin Qaraağaclı qəsəbə kitabxana filialında "Nizami Gəncəvi – 880" adlı kitab sərgisi təşkil olunub.

Ağstafa Regional Mədəniyyət İdarəsi Ağstafa rayon Mədəniyyət Mərkəzində Yeni Azərbaycan Partiyasına yeni daxil olan əməkdaşlarla görüş keçirilib.



Sabirabad Regional Mədəniyyət İdarəsi Sabirabad rayon MKS-nin təşəbbüsü ilə Azərbaycan Yazıçılar Birliyi Aran bölməsinin sədri Sərvaz Hüseynoğlunun "Bir ocaq başında. Aran ədəbi toplusu" kitabının təqdimatı keçirilib. Regional idarənin rəisi Fərid Qurbanzadə gənclərin bədii-estetik zövqünün formalaşmasında Aran ədəbi mühitinin rolunu vurğulayıb və müəllifi təbrik edib.

Sumqayıt Regional Mədəniyyət İdarəsi Nəriman Nərimanov adına Sumqayıt şəhər Mədəniyyət Mərkəzində "Dostluq" Mədəniyyət evinin direktoru, Əməkdar mədəniyyət işçisi Aslan Fətullayevin 65 illik yubileyi qeyd olunub. İdarənin rəisi Rəşad Əliyev yubilyarı təbrik edərək ona regional idarənin fəxri fərmanını və xatirə hədiyyəsi təqdim edib.

Sumqayıt şəhər Qara Qarayev adına 1 nömrəli Uşaq musiqi məktəbinin şagirdləri "Herbst Symphonie – Berlin 2021" onlayn ifaçılıq müsabiqəsində yüksək nəticə əldə ediblər. Fortepiano üzrə Aytac Vəlizadə və Valeriya Olxova 1-ci, Səid Vəlizadə, Aysu Məmmədzadə, Ayla Pənahova və İnci Vəlizadə 2-ci dərəcəli laureat adlarını qazanıblar.




Şəki Regional Mədəniyyət İdarəsi Qax rayon Qum kənd Sənətkarlıq evi və kənd kitabxanasının birgə təşkilatçılığı ilə "Cənnətim – Qarabağ" adlı bədii qiraət müsabiqəsi keçirilib. Rayonun Güllük kənd Mədəniyyət evində "Yaradıcı əllər" adlı rəsm sərgisi təşkil olunub. Sərgidə kənd məktəblilərinin əl işlərindən ibarət, əsasən Vətən müharibəsini və təbiət mənzərələrini əks etdirən rəsmlər yer alıb.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon MKS-nin Mərkəzi Kitabxanasında "Vətənpərvərlik mövzusu bədii ədəbiyyatda" adlı "kitab həftəsi" təşkil edilib.

Masallı Regional Mədəniyyət İdarəsi Masallı rayon Mərkəzi Kitabxanasında görkəmli aktrisa, Xalq artisti Nəcibə Məlikovanın (1921-1992) 100 illiyi ilə əlaqədar tədbir keçirilib. Tokioda təşkil edilmiş XVI Yay Paraolimpiya Oyunlarında 100 metr məsafəyə brass üsulu ilə üzmə yarışında qızıl medal qazanan, əslən Masallıdan olan Vəli İsrafilov ilə görüş keçirilib. İdmançının şərəfinə təşkil edilən konsertdə rayon Mədəniyyət Mərkəzinin incəsənət ustaları tərəfindən bir-birindən zövqlü musiqilər ifa olunub.

Hazırladı: N.MƏMMƏDLİ

# Qəhrəmanlar unudulmur



Ağdaş Regional Mədəniyyət İdarəsi Zərdab rayon Mərkəzi Kitabxanasının əməkdaşları Vətən müharibəsi şəhidi Faiq Vəlizadənin anım günü ilə əlaqədar ailəsi ilə görüşüb, məzarını ziyarət ediblər. Ucar Rayon Tarix-Diyarşünaslıq Muzeyində Vətən müharibəsində şəhid olmuş ucarlıların şəxsi əşyalarından ibarət "Danışan əşyalar" adlı sərgi təşkil edilib.

Xaçmaz Regional Mədəniyyət İdarəsi Quba rayon MKS-nin Alpan kənd kitabxanasında Vətən müharibəsinin ildönümü ilə əlaqədar tədbir keçirilib. MKS-nin İqriq kənd kitabxanasında II Qarabağ müharibəsi şəhidi Əli İbrahimovun anım günü ilə əlaqədar tədbir keçirilib. MKS-nin Gültəpə, Möhüc və Tülər kənd kitabxanalarının əməkdaşları və oxucuları Vətən müharibəsi şəhidi Ceyhun İsayevin doğum günü ilə əlaqədar məzarını ziyarət ediblər.

Şəki Regional Mədəniyyət İdarəsi Oğuz rayon Tayıflı kənd klubunda Vətən müharibəsində iştirak edən "Tarix yazan müəllimlər" adlı tədbir keçirilib. Balakən rayon Heydər Əliyev Mərkəzində Qubadlı rayonunun düşmən işğalından azad olunmasının (25 oktyabr) ildönümü ilə əlaqədar tədbir keçirilib. Balakən rayon Kortala kənd Diyarşünaslıq evi Vətən müharibəsinin şəhidi Əsgər Hüseynovun ailəsi ilə görüşüblər. Qaravəli kənd Diyarşünaslıq evinin əməkdaşları II Qarabağ müharibəsi şəhidi Fuad Şabanovun anım günü ilə əlaqədar ailəsinə baş çəkib, məzarını ziyarət ediblər. Balakən rayon Hənifə kənd Diyarşünaslıq evində "Zəfər salnaməsi" başlığı altında dəyirmi masa təşkil olunub.

Ağstafa Regional Mədəniyyət İdarəsi, Qazax Rayon İcra Hakimiyyətinin dəstəyi, rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə Qubadlı rayonunun işğaldan azad olunmasının ildönümü ilə əlaqədar tədbir keçirilib. Tədbirdə regional idarənin rəisi Elbəy Əli və digər qonaqların çıxışları olub. H.Arif adına Ağstafa şəhər Uşaq musiqi məktəbində "Zəfərə doğru addım" başlıqlı dəyirmi masa keçirilib. Qazax şəhər 1 nömrəli Uşaq musiqi məktəbində "Zəngin tarixi ilə seçilən Qubadlı azad edildi" adlı tədbir təşkil olunub. Qazax Rayon Tarix-Diyarşünaslıq Muzeyinin əməkdaşları 44 günlük Vətən müharibəsinin şəhid giziri Tahir İsmayılovun ailəsini ziyarət ediblər. Tovuz rayon Qovlar şəhər Uşaq musiqi məktəbində "Qubadlı bizimdir!" adlı dəyirmi masa təşkil edilib. Tovuz rayon Heydər Əliyev Mərkəzinin əməkdaşları Vətən müharibəsinin şəhid baş leytenantı Əfşan Hüseynovun anım tədbirində iştirak ediblər. Tovuz rayon Mərkəzi Kitabxanasının əməkdaşları Vətən müharibəsi şəhidi Münasib Yusifovun ailəsinə baş çəkiblər.

Gəncə Regional Mədəniyyət İdarəsi Gəncə şəhər MKS-nin 3 saylı kitabxana filialının kollektivi Vətən müharibəsi şəhidi Nadir Abbasquliyevin ailəsi ilə "Şəhidlər şərəf zirvəsidir" adlı görüş keçirib. Kəlbəcər rayon Aşıq Şəmşir adına Mədəniyyət evinin kollektivi Vətən müharibəsində mənfur düşmən tərəfindən Gəncə şəhərinə raket zərbələri nəticəsində həlak olanların xatirəsini yad etmək üçün faciənin baş verdiyi ərazini ziyarət ediblər.




Masallı Regional Mədəniyyət İdarəsi Nizami Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrı "Silaha sarılan yurd oğulları" adlı ədəbi-bədii kompozisiyasını nümayiş etdirib. Yazıçı-publisist Nurəddin Ədiloğlunun Vətən müharibəsi şəhidlərinin həyatı və döyüş yolundan bəhs edən yazıları əsasında hazırlanmış kompozisiya maraqla qarşılanıb. Daha sonra regional idarənin rəisi Bəxtiyar Qılıncov şəhid ailələri ilə görüşüb. Masallı rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə "Zəfər tariximiz" layihəsi çərçivəsində "Azərbaycanın şanlı tarixi" mövzusunda növbəti tədbir keçirilib.

Bərdə Regional Mədəniyyət İdarəsi Bərdə rayon MKS-nin Səməd Vurğun adına Mərkəzi Kitabxanasında Vətən müharibəsinin şəhid polkovnik-leytenantı Elzamin Təhməzovun doğum günü münasibətilə ailə üzvləri ilə "Adına və andına sadiq qəhrəman" adlı görüş təşkil edilib.

İsmayıllı Regional Mədəniyyət İdarəsi Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyində "30 illik həsrət bitdi" mövzusunda dəyirmi masa gerçəkləşib. Şamaxı Dövlət Rəsm Qalereyasında "Qarabağ Azərbaycandır!" adlı sərgi keçirilib.

Biləsuvar Regional Mədəniyyət İdarəsi Neftçala Dövlət Rəsm Qalereyası, rayon Tarix-Diyarşünaslıq Muzeyi və Mədəniyyət Mərkəzinin əməkdaşları Vətən müharibəsi şəhidi Səid Cəfərovun ailəsini ziyarət ediblər.

Sumqayıt Regional Mədəniyyət İdarəsi Sumqayıt Dövlət Rəsm Qalereyasında "Zəfər Gününün rəngləri" adlı rəsm sərgisi keçirilib. Sərgidə şəhər İncəsənət məktəbi şagirdlərinin Zəfər Gününə həsr edilən rəsmləri nümayiş olunub. İdarənin Xızı rayon nümayəndəliyinin əməkdaşları II Qarabağ müharibəsi şəhidi Alik İsayevin anım mərasimində iştirak ediblər.

Kürdəmir Regional Mədəniyyət İdarəsinin əməkdaşları Vətən müharibəsi şəhidi Tural Eyyubovun anım mərasiminə qatılıblar.

Ağcabədi Regional Mədəniyyət İdarəsi Ağdam rayon MKS-nin Mərkəzi Kitabxanası rayonun 68 saylı köçkün tam orta məktəbində Qubadlının işğaldan azad olunmasının ildönümü ilə əlaqədar tədbir keçirib. Laçın Tarix-Diyarşünaslıq Muzeyində Vətən müharibəsi şəhidi Şahgündüz Cabbarova həsr olunmuş "Gözləyin dağlar, gəlirəm" adlı anım tədbiri keçirilib.

# "Mənim atam qəhrəmandır"

Xaçmaz Regional Mədəniyyət İdarəsi Qusar rayon Heydər Əliyev Mərkəzində Vətən müharibəsi şəhidlərinin övladları üçün "Mənim atam qəhrəmandır" layihəsi həyata keçirilib.

Rayon Heydər Əliyev Mərkəzinə dəvət edilən şəhid övladları və ailə üzvləri mərkəzlə tanışlıqdan sonra Uşaq incəsənət və şəhər 4 saylı tam orta məktəbin şagirdlərinin ifasında konsert proqramını dinləyib, kinozalda cizgi filmlərini seyr ediblər.

Şəhid övladları qəhrəman ataları haqqında ürək sözlərini bölüşərək müxtəlif mahnılar və şeirlər səsləndirib, dağlar üzərində rəsmlər çəkiblər.



Tədbirin sonunda şəhid övladlarına Qusar rayon Heydər Əliyev Mərkəzi və Gənclərin İnkişaf və Karyera Mərkəzi Qusar rayon nümayəndəliyi tərəfindən hədiyyələr təqdim olunub.

# Moskvada Bakı Musiqi Akademiyasının 100 illiyinə həsr olunmuş konsert



əvvəli səh. 1-də

Rektor Azərbaycan klassik musiqisinin inkişafında rus bəstəkarlarının və pedaqoqlarının rolundan da danışıb. Bildirib ki, BMA-nın 100 illik yubileyinin Moskva Konservatoriyasında qeyd olunması həm Azərbaycanın, həm də Rusiyanın mədəni həyatında əlamətdar hadisədir.

P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasının rektoru Aleksandr Sokolov BMA-nı yubiley münasibətilə təbrik edərək deyib: “Mən həmkarlarımı, dostum Fərhad Bədəlbəylini təbrik etmək istəyirəm. Yuvarlaq 100 rəqəmi çox şeydən xəbər verir. Bu, peşəkar ustalıq və inkişaf üçün artıq fundamental təməl deməkdir”. A.Sokolov vurğulayıb ki, BMA-nın yubileyinin Moskva Konservatoriyasının Böyük zalında qeyd olunması iki ölkənin musiqi dünyası arasında yaxşı ənənələrin davamıdır: “Bizim əlaqələrimiz gələcək nəsillər tərəfindən mütləq davam etdirilməlidir”.

Sonra yubiley konserti təqdim edilib. Konsertdə BMA-nın tanınmış məzunları da iştirak ediblər. SSRİ Xalq artisti Fərhad Bədəlbəyli, Azərbaycanın Xalq artistləri Yalçın Adıgözəlzadə, Murad Adıgözəlzadə, Samir Cəfərov, Alim Qasımov, Murad Hüseynov, Yeganə Axundova, Əməkdar



artistlər Fuad İbrahimov, Elvin Qəniyev, Sahib Paşazadə, Azər Zadə, İlham Nəzərov, Fərqanə Qasımova, beynəlxalq müsabiqələr laureatı Selcan Nəsibli, dahi Bülbülün nəvəsi Murtuza Bülbül və başqaları səhnəyə çıxıblar.

Proqramda Mixail Pletnyovun rəhbərliyi ilə Rusiya Milli Orkestrinin ifasında Azərbaycan musiqisinin klassikləri Üzeyir Hacıbəyli, Qara Qarayev, Fikrət Əmirov və Niyazinin, eləcə də Qərbi Avropa və rus bəstəkarlarının əsərləri yer alıb. Dahi Üzeyir Hacıbəylinin “Koroğlu” operasının uvertürası ilə açılan konsert proqramı dirijor Yalçın Adıgözəlzadənin rəhbərliyi ilə Alim Qasımovun və Fərqanə Qasımovanın ifasında “Qarabağ şikəstəsi” oratoriyasının finalı ilə başa çatıb.

Azərbaycan musiqi mədəniyyətinin və musiqi təhsilinin inkişafında əvəzsiz rol oynayan Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası zəngin yol keçib. Dahi Üzeyir Hacıbəylinin səyləri sayəsində yaradılmış bu sənət məbədi yüksəkixtisaslı kadrlar yetişdirilən ustalıq məktəbinə çevrilib. İlkin mərhələdə Üzeyir Hacıbəylinin Moskva, Leninqrad və Rusiyanın digər şəhərlərinin konservatoriyalarından dəvət etdiyi rus musiqi mədəniyyətinin görkəmli xadimləri Azərbaycanda milli kadrların yetişdirilməsinə, ifaçılıq məktəbinin inkişafına mühüm töhfələr veriblər. M.Brenner,



G.Şaroyev, V.Kozlov, L.Rostropoviç, S.Bretanitski, İ.Turiç, V.Anşeleviç, N.Speranski və bir çox digər mədəniyyət xadimlərinin adları böyük minnətdarlıq hissi ilə çəkilir, onların sayəsində Bakı keçmiş Sovet İttifaqında musiqi mərkəzi statusu qazanıb.

# Bizi hələ də vahid mədəni məkan birləşdirir

P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) 100 illiyi münasibətilə keçirilən konsertin iştirakçı və tamaşaçıları – Azərbaycanın və Rusiyanın tanınmış mədəniyyət xadimləri təəssüratlarını bölüşüblər.

Azərbaycanın Rusiyadakı səfiri, Xalq artisti **Polad Bülbüloğlu**:

– Mən də Bakı Musiqi Akademiyasında, Qara Qarayevin sinfində təhsil almışam və 1968-ci ildə Bəstəkarlıq fakültəsini bitirmişəm. Azərbaycanın Rusiyadakı səfiri kimi BMA-nın yubileyinin Moskvada keçirilməsi üçün əlimdən gələni etmişəm. Açığını deyim ki, çox ciddi problemlər, koronavirusla bağlı məhdudiyyətlər var idi. Şadam ki, iştirakçıların hamısı Moskvaya gələ bilib və biz BMA-nın yubileyini dünyanın ən tanınmış konsert zallarından biri olan Moskva Konservatoriyasının Böyük salonunda keçiririk. Tədbirin təşkilinə görə Heydər Əliyev Fonduna təşəkkürümü bildirirəm və Qələbəmizin birilliyi ərəfəsində belə bir tədbirin keçirilməsindən qürur duyuram.

BMA-nın rektoru, SSRİ Xalq artisti **Fərhad Bədəlbəyli**:



– İlk növbədə Heydər Əliyev Fonduna minnətdarlığımı bildirmək istərdim, çünki bu tədbir Fondun təşəbbüsü və təşkilatçılığı ilə baş tutub. Üzeyir bəyin qurduğu akademiyamızın 100 illiyinin Moskva Konservatoriyasının Böyük zalında qeyd olunması böyük şərəfdir. Musiqiçilərimizi dünyanın ən yaxşı simfonik orkestrlərindən biri – Mixail Pletnyovun rəhbərliyi ilə Rusiya Milli Orkestri müşayiət edir. Bu gün biz Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban Əliyevanın Qarabağın azad edilmiş torpaqlarına səfərlərini izləyirik və bu hadisələr bizi dünyanın ən yaxşı səhnələrində çıxış etməyə həvəsləndirir. Tədbirin təşkili üçün Azərbaycanın Rusiyadakı Səfirliyinə, dostum Polad Bülbüloğluna da təşəkkürümü bildirirəm. O da bizim akademiyanın məzunudur.

Moskva Dövlət Konservatoriyasının rektoru **Aleksandr Sokolov**:

– Moskva və Bakı konservatoriyalarını möhkəm dostluq əlaqələri bağlayır. Bu, çox yaxşı ənənədir. İndi biz gələcəyə baxmalı, elə etməliyik ki, bizim tələbələrimiz, gələcək nəsil Rusiya və Azərbaycan musiqiçiləri də qarşılıqlı yaradıcılıq mübadiləsinə ehtiyac duysunlar.

Xalq artisti **Yalçın Adıgözəlzadə**:

– Tarixi bir gündür. Üzeyir bəyin adını daşıyan akademiyamızın yubileyini Moskvada qeyd edirik. Biz hamımız bu təhsil ocağının məzunuyuq. Bəzilərimizin valideynləri də, məsələn, mənim atam, əmim bu ocaqda təhsil alıblar. Bugünkü konsertin daha bir diqqət çəkən məqamı var. Düz 30 il əvvəl, 1991-ci il yanvarın 20-də Moskva Konservatoriyasının Böyük zalında “Qarabağ şikəstəsi” oratoriyasının premyerası baş tutmuşdu. O zaman mən və Alim Qasımov bu səhnəyə çıxdıq, ancaq oratoriyanın adındakı “Qarabağ” sözü çıxarıldı və əsər “Vasif Adıgözəlov, “Şikəstə” kimi təqdim olundu. Otuz il keçdi, torpaqlarımız qayıtdı və indi bu zalda “Qarabağ şikəstəsi” yenidən ifa olunur.

Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi **Mixail Şvıdkoy**:

– Bakı Musiqi Akademiyasının yetirmələrinə dünyanın hər yerində rast gəlmək olar. Bu gün BMA-nın yubileyinin Moskva Konservatoriyasının Böyük salonunda keçirilməsi göstərir ki, bizi hələ də vahid mədəni məkan birləşdirir. Musiqi sərhəd tanımır və bu gün Azərbaycan musiqiçiləri moskvalılara unudulmaz bayram bəxş etdilər. Bu, bir daha sübut edir ki, Azərbaycan və Rusiya xalqlarını dərin dostluq əlaqələri birləşdirir.

TASS Agentliyinin baş direktorunun birinci müavini **Mixail Qusman**:

– Heydər Əliyev Fondunun Bakı Musiqi Akademiyasının yubileyini Moskvada keçirmək təşəbbüsü olduqca əlamətdardır. Əfsanəvi Bakı Konservatoriyasında Moskvanın, Sankt-Peterburqun da tanınmış pedaqoqları dərs deyiblər. Azərbaycanın ən yaxşı musiqiçilərinin, BMA-nın məşhur məzunlarının çıxışı, dahi Azərbaycan bəstəkarlarının əsərlərinin səslənməsi bu gecəni Moskvanın mədəni həyatında əlamətdar hadisəyə çevirir.

Xalq artisti **Alim Qasımov**:

– Üzeyir bəyin yaratdığı konservatoriyanın 100 illiyini qeyd edirik. Bakı Musiqi Akademiyası tarixi yol keçib, böyük şəxsiyyətlər bu təhsil ocağında yetişib. Akademiyanın yubileyinin dünya şöhrətli Moskva Konservatoriyasında qeyd edilməsi əlamətdar hadisədir.

# Paytaxtımızda “Caz səsləri” eşidilir...

## Yeni layihə Bakı Musiqi Akademiyasının yubileyinə həsr olunub



Oktyabrın 26-da Beynəlxalq Muğam Mərkəzində “Caz səsləri” (“Jazzery Voices”) layihəsinin açılışı keçirildi. Layihə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının (BMA) 100 illik yubileyinə həsr olunub.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, BMA-nın dosenti, “Jazzery Voices” layihəsinin müəllifi Turan Məmmədəliyeva Bakı Musiqi Akademiyasının tarixi bağlı fikirlərini bölüşdü. Bildirdi ki, müasir Azərbaycan musiqi mədəniyyətinin qurucusu, milli bəstəkarlıq məktəbinin banisi olan Üzeyir Hacıbəyli özündən sonra parlaq iz qoyub. Məhz onun davamçısı olmuş sənətkarlar sayəsində musiqi mədəniyyətimiz müxtəlif janrlarda inkişaf edərək dünyaya inteqrasiya olunub.

Ölkəmizdə caz sənətinin inkişafı haqqında söz açan T.Məmmədəliyeva qeyd etdi ki, Azərbaycan cazının bünövrəsi 30-cu illərin sonunda qoyulub. Bakıda Niyazi və Tofiq Quliyev “Dövlət cazı” adı ilə tanınan Dövlət Estrada Orkestrini yaradıblar. Orkestrin ilk konsert proqramına klassik cazla yanaşı, Niyazinin və Tofiq Quliyevin əsərləri də daxil edilib. Kollektiv həmin dövrdə böyük populyarlıq qazanıb. Sonrakı dövrlərdə Bakıda bir çox caz orkestrləri yaranıb və müasir günümüzdə də caz sənətinin görkəmli imzaları ölkəmizi beynəlxalq festivallarda layiqincə təmsil edirlər.

Daha sonra layihənin ilk konserti gerçəkləşdi. Gənc caz ifaçısı Nərmin Məmmədlini səhnədə pianoçu Afşin Əlizadə, bas-gitarada Nicat Paşazadə və zərb alətlərində Həsən Bilalov müşayiət edirdi. Konsert proqramı maraqla qarşılandı.

Qeyd edək ki, noyabrın 6-dək davam edəcək konsertlərdə “Bakustik Caz”, “Bakuba Band”, “Qaya”, “Baku Brass Biq Bendi”, BMA-nın “Lumineux” xoru və gənc ifaçıların caz heyətlərinin çıxışı musiqisevərlərin könlünü oxşayacaq.

“Jazzery Voices” layihəsi noyabrın 6-da Beynəlxalq Muğam Mərkəzində Zəfər bayramına ithaf edilən “Jazz Says Victory” adlı qala-konsertlə yekunlaşacaq.

**Lalə AZƏRİ**

Ağaxan Salmanlı – 80

# Səhnənin qulu da, ağası da, xanı da olmaq...

Yaddaşımı itiləyib onun obrazlar qalereyasını xatırlamağa çalışanda qəribə bir təsvir yarandı: uzaqlaşan işıqların altında ağ frak geyinmiş, qırmızı “kəpənək” bağlamış bir kişi həsrətlə səhnəyə baxır. Kədərli və amansız mənzərə... Konkret yadımda deyil, kim deyib, amma maraqlı mülahizədir: aktyorlar hansı yaşlarında ölsələr də, biz onların ölümünü zamansız kimi qəbul edirik. Yəqin bu da onların, əslində, şansı, ən böyük mükafatlarıdır. Çünki dünya adlı səhnədə qaldıqları müddətdə yox, ondan sonra da xatırlanırlar.

Xalq artisti, yaxşı ifaçı Ağaxan Salmanlı zahirdə mahir yumor ustası, daxildə usta dramatizmini yumorun silahına çevirən unikal aktyorlardan biri idi. Onu yada salarkən, istər-istəməz, səhnənin, sənətin ağa kimi qulu, qul kimi xanı olaraq xatırlayıram. Yaddaşımla inadlaşıb zaman əqrəbini oynadığı son rollarından biri üzərində dayandırıram. Hersoq Bekingem.

Vilyam Şekspirin 450 illik yubileyi şərəfinə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında səhnəyə qoyulan “III Riçard”ın (rejissor Cənnət Səlimova) Hersoq Bekingemi Ağaxan Salmanlı idi. Əsas plan rollarından deyildi. Heç özünün də köməkçi vasitələrdən bəhrələnməklə gözə soxmaq, irəliyə, mərkəzə can atmaq iddiası yox idi. Amma və lakin tamaşaçı bu yaşlı və yorğun aktyorun qəhrəmanı ilə uzlaşmasını yaxşı duymuşdu. Ağaxanın da məhz bu xoşuna gəlmişdi, yəqin. Ona görə də illərin təcrübə və özünə inamı sayəsində baş qəhrəmanın kölgəsində yer almayan bir oyun sərgiləyirdi.

Bir anlıq səhnədəki aktyorla obrazı arasındakı rabitəsini bu mənada ən real və dolğun təsir mexanizmi kimi işə salıb, 80 illik yubiley xatırlamasında onu məhz bu rakursdan təqdim etmək istədim.

Bu gün onun günüdür. “Aktyorluq əsgəri xidmət kimidir” deyib bütün ömrünü sənətin, səhnənin müsəlləh əsgəri kimi keçirən Ağaxan Salmanlı yaşasaydı 80 illik yubileyini tamaşaçıları ilə qeyd edəcəkdi.

Ağaxan Əli oğlu Salmanlı 29 oktyabr 1941-ci ildə Bakıda anadan olub. Sənətə gedən yolunda ilk addımları indiki Suraxanı Mədəniyyət sarayındakı fəhlə-gənclər özfəaliyyət dram dərnəyində atır. İstedadı və tamaşaçı ilə ünsiyyət qabiliyyətinə görə bir il Azərbaycan Dövlət Kukla Teatrında həvəskar aktyor kimi çalışır. Daha sonra Dövlət Teatr İnstitutunun (indiki ADMİU) Dram-kino aktyorluğu fakültəsində görkəmli sənətkar Rza Təhmasibin kursunda təhsil (1960-1964) alır. Peşəkar səhnə fəaliyyətinə Gənc Tamaşaçılar Teatrında başlayır və bütün yaradıcılığı boyu bu sənət ocağına sadiq qalır.



“Ordan-burdan” televiziya tamaşası



Vilyam Şekspir – “III Riçard” tamaşası

Teatr səhnəsinə ilk dəfə S.Dağlının “Bahar oğlu” əsəri əsasında səhnələşdirilən “Aydınlığa doğru” tamaşasında Cəfər Cabbarlı obrazı ilə çıxır. Beləcə, uzun illər müxtəlif xarakterli rollara maraqlı və özünəməxsus yozumlar verir: Romeo (“Romeo və Cülyetta”), Səməd (“Sən nə üçün yaşayırsan?”), Kazım (“Məhəbbət bir bəladır”), Qulam (“Pul dəlisi”), Hacı Murad (“Tamahkar”), Kərbəlayı Mirzalı (“Danabaş kəndinin məktəbi”), Flibert (“Məzəli hadisə”), Bəylər (“Nənənin kələyi”), Milisioner Səfər (“Buzovna kəndinin əhvalatları”) və s.

Kütləvi tamaşaçıya filmlərdən, televiziya tamaşaları və proqramlarından yaxşı tanış olan Ağaxan Salmanlı “Mozalan” kinojurnalının da sevilən, arzulanan aktyorlarından idi.

Özünü tamaşalarda rejissor kimi də sınaqdan çıxaran aktyor, çalışdığı teatrla yanaşı, Lənkəran və Dərbənd teatrlarında da bir neçə tamaşaya yaddaqalan quruluş verməyi bacarıb. Bunlar daha çox uşaq və yeniyetmələr üçün tamaşalar olsa da, onun aktyorla, tamaşaçı ilə ünsiyyət imkanları bütünlükdə öz ifadəsini tapa bilib. “Dovşanın ad günü”, “Qarışqa şıllaq atdı”, “Pul dəlisi”, “Xatirə”, “Nənənin kələyi” tamaşaları onun sənət tərcümeyi-halında da xüsusi yer tutur.

Uşaqları çox sevən Ağaxan Salmanlı bir çox cizgi filmlərində səsi ilə görünürdü. Uşaqlıq yaddaşımızı yaxşı mənada işğal edən “Tülkü həccə gedir” cizgi filminin Tülküsü, “Pışpısa xanım və Siçan bəy”in Canavarı, eləcə də müxtəlif mövzulu bədii və sənədli filmlərin təsirli səsi o idi.

Ümumiyyətlə, filmoqrafiyasındakı əksər ekran əsərlərində onu ya epizodda (bəzi filmlərdə titrlərdə adı da yoxdur) görür, ya da səslənmədə eşidirik. Özünəməxsus səs tembri onu başqa aktyorların görüntüsündə ekran yaddaşına köçürə bilib.

Hər zaman böyük maraqla izlənən, ən yaxşı televiziya tamaşalarından hesab olunan “Ordan-burdan”ın Doktor Bayramı onun özünəməxsus ifasında, aktyor çalarlarında xüsusilə seçilir. Maraqlı və baxımlı rollarından biri də Mirzə Cəlilin hekayələri əsasında ekranlaşdırılan “Nigarançılıq” teletamaşasında Məşədi Səfərdir. Bu rolda məhrumiyyətlərə məruz qalmış, əzilmiş, incidilmiş insanın faciəsini qara yumor, sarkazm, ümumən öz faciəsinə gülə bilmək rahatlığı ilə göstərə bilib.

Ağaxan Salmanlı zəhmətkeş aktyor idi. Rollar arasında fərq qoymaz, səhnədə olmaqdan zövq alardı.

1978-ci ildə “Əməkdar artist”, 2006-cı ildə isə “Xalq artisti” fəxri adlarına layiq görülən aktyor “Qızıl dərviş” mükafatı laureatı idi.

“Tamaşaçılar həm müxtəlif zövqə, həm də teatr anlayışı baxımından müxtəlif düşüncə tərzinə malikdirlər” deyən aktyor tamaşaçısını, onunla canlı və ya ekran vasitəsilə ünsiyyət quran izləyicisini yaxşı tanıyırdı. Bu mənada televiziya proqramlarındakı ayrı-ayrı səhnəciklərdə biz hər dəfə başqa bir obraz və yanaşmanı görürdük.

Bu baxımdan “Səhər görüşləri”ndəki Lyubimçik Ağəlini, “Ordan-burdan”dakı “mne eto nado” deyən Doktor Bayramı kütləvi tamaşaçıya sevdirə bilmişdi. O rollardakı replikalar kütləviləşmiş, lətifəyə çevrilmişdi.

Tamaşaçı yaddaşında lirik-dramatik, yumor və satirik məqamlarla dolu rolları ilə qalan aktyor həyat obrazını təsirli oynadı. 29 fevral 2020-ci ildə səhər saatlarında qəfil ürəktutmasından vəfat etdi. Ürəklə oynadığı rolları, ürəkli qəhrəmanları və onu ürəkdən sevən tamaşaçıları ilə vidalaşdı. Beləcə, saçlarını səliqə ilə yana daramış ağ fraklı, qırmız “kəpənək”li kişi işıqlı səhnəsindən bizə son dəfə əl yellədi...

**Həmidə NİZAMİQIZI**

# Həm yaralı, həm də ailənin tək övladısan...

İkinci Qarabağ müharibəsində ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman oğullardan biri də kiçik çavuş Emin Tahir oğlu İsmayılovdur.



Emin 21 may 2001-ci ildə Bakı şəhərində anadan olub. Ailəsi əslən Cəbrayıl rayonundandır. 1993-cü ildə rayon Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunanda yurdundan didərgin düşən ailə sonradan Bakıda məskunlaşıb. Emin 54 saylı tam orta məktəbi bitirib.

Ailənin tək övladı olan Emin doğma el-obasının düşmən tapdağında qalması ilə heç cürə barışmır, qisas gününü səbirsizliklə gözləyirdi. O, 2019-cu ildə həqiqi hərbi xidmətə yollanır. Goranboy rayonundakı N saylı hərbi hissədə xidmətdə olduğu vaxtda Vətən müharibəsi başlanır. Emin də torpaqlarımızın işğaldan azad olunması və ərazi bütövlüyünün bərpa edilməsi zamanı döyüş əməliyyatlarında yüksək peşəkarlıqla iştirak edir. Suqovuşan, Kəlbəcər istiqamətində gedən ağır döyüşlərdə böyük şücaət göstərir. Çox sayda yaralı və şəhidlərimizi döyüş meydanından çıxarır.

Döyüşlərin birində ayağından güllə yarası alır. Yaralı olmasına baxmayaraq, əsgər yoldaşlarını tək buraxmır, doqquz yaralını döyüş meydanından çıxarmağa nail olur. Komandiri onun yaralı və evin tək oğlu olduğunu nəzərə alaraq əmr edir ki, çox irəli getməsin. Lakin Emində olan mərdlik, Vətənə bağlılıq hissinin qarşısını heç kəs ala bilmir. O, oktyabrın 6-da Kəlbəcər rayonu istiqamətində gedən ağır döyüşlərdə qəhrəmancasına şəhid olur.

Şəhidin xalası oğlu Elvin Əhmədov deyir: "O da, mən də ailənin tək övladı olduğumuz üçün aramızda xalaoğlu yox, qardaş bağı var idi. Vətən müharibəsi başlayanda Emin mənə belə bir mesaj yazdı: "Qardaş, burada müharibə gedir, Ordumuz irəliləyir. Amma taleyin işini bilmək olmaz. Anam, xalam sənə əmanətdir. Haqqını halal elə". Mən də söylədim ki, Emin, məni qardaşsız qoyma. Hələ zarafat edərək gəl evdəkilərə özün bax dedim. Sonuncu dəfə Eminlə sentyabrın 30-da əlaqə saxladıq. Dedik, güldük, anamla, xalamla danışdı. O gündən sonra Eminlə əlaqə qura bilmədik. Noyabrın 26-da şəhid xəbərini aldıq. Emin Vətənə bağlı övlad idi. Allah Eminə və bütün şəhidlərimizə rəhmət eləsin".

Emin İsmayılov noyabrın 27-də II Fəxri xiyabanda torpağa tapşırılıb. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunub.

Allah rəhmət eləsin.

**NURƏDDİN**

# Arəstə Baxışovanın xatirəsi anılıb

"Mirvarid Dilbazi Poeziya Məclisi" İctimai Birliyinin təşkilatçılığı ilə Azərbaycanın ərazi bütövlüyü uğrunda 44 gün davam edən Vətən müharibəsinin tək xanım şəhidi, hərbi tibb qulluqçusu Arəstə Baxışovanın anım mərasimi keçirilib. Tədbirdə şəhidin doğmaları, şəhid ailələri, qazilər iştirak ediblər.




Çıxış edənlər şəhidimizin doğmalarına səbir diləyib, ruhuna dualar ediblər. 44 günlük Vətən müharibəsində minlərlə gəncin qəhrəmanlıqla döyüşdüyü, adlarını tarixə yazdıran şəhidlərimizin xatirəsi daim hörmət və ehtiramla yad ediləcəyi vurğulanıb. Qeyd olunub ki, yaralı hərbçilərimizi döyüş meydanından çıxerarkən həlak olan Arəstə Baxışova xalqımızın qəhrəman qızı kimi şəhadət zirvəsinə yüksəlib.

Azərbaycan Ordusunun çavuşu olan hərbi feldşer Arəstə Baxışova Vətən müharibəsi zamanı Füzulinin, Zəngilanın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yaralı hərbçilərə döyüş meydanında tibbi yardım göstərib. O, oktyabrın 23-də Qubadlı döyüşləri zamanı şəhid olub. Biləcəri qəsəbəsinin Şəhidlər xiyabanında dəfn olunub.

Prezidentin müvafiq sərəncamına əsasən, Arəstə Baxışova ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif edilib.

# "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün"

## İstiqlal Muzeyində növbəti sərgi

Azərbaycan İstiqlal Muzeyində 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək və vətənpərvərliyin təbliği məqsədilə həyata keçirilən "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" adlı layihə çərçivəsində növbəti sərgi-tədbir təşkil olunub.

Tədbirdə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərdən söz açılıb. Qeyd edilib ki, Vətən torpaqlarının işğaldan azad olunmasında xidmətlər göstərmiş qəhrəmanlarımıza və onların ailə üzvlərinə diqqət və qayğı dövlətimizin, ümumilikdə cəmiyyətimizin ümdə məsələlərindən biridir.

Sonra tədbir iştirakçıları Vətən müharibəsi şəhidləri – polkovnik-leytenant Rəşad Quliyev, eyni gündə şəhidlik zirvəsinə ucalmış iki qardaş – kiçik çavuş Əli Əhmədov və müddətdən artıq hərbi qulluqçu İslam Əhmədov, Ermənistan silahlı qüvvələrinin cəbhə xəttindən uzaqda dinc sakinlərə qarşı törətdiyi terrorun qurbanı Fidan Qurbanovaya həsr olunan sərgi ilə tanış olublar.



Sərgidə şəhidlərin İstiqlal Muzeyinə təqdim olunmuş şəxsi əşyaları, fotoşəkillər nümayiş olunur.

Tədbirdə şəhid ailələri, paytaxtdakı 316 nömrəli tam orta məktəbin şagirdləri, Azərbaycan Memarlıq və İnşaat Universitetinin tələbələri iştirak ediblər.

"Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" silsiləsindən növbəti sərgi oktyabrın 31-dək davam edəcək.

# Zəngilandakı Səkkizguşəli türbə bərpa olunacaq



Zəngilan təbii-coğrafi şəraiti, mədəni irsi, tarixi abidələri ilə seçilən bölgələrimizdəndir. 27 il davam edən erməni işğalı dövründə rayonun bütün yaşayış məntəqələri, infrastrukturu dağıdılıb, talan edilib. Geriyə isə yaddaşlara hopmuş xatirələr, arxivlərdə saxlanılan fotolar qalıb. Oktyabrın 20-də işğaldan qurtuluşunun ildönümünü qeyd edən Zəngilan şəhəri də, rayonun qəsəbə və kəndləri də tezliklə yenidən dirçələcək...

Zəngilan işğaldan azad olunduqdan sonra rayon ərazisindəki tarix-mədəniyyət abidələrinə baxış keçirilib, onların hazırkı vəziyyəti qeydə alınıb, inventarlaşma aparılıb.

Təəssüf ki, işğala məruz qalmış digər ərazilərimiz kimi, Zəngilanda da tarixi abidələrin əksəriyyəti dağıdılıb, vandalizmə məruz qalıb.

Rayon ərazisində dövlət mühafizəsinə götürülmüş 19 tarix-mədəniyyət abidəsindən 8-i ölkə əhəmiyyətli, 11-i yerli əhəmiyyətli abidələrdir. Bunlardan Səkkizguşəli türbə, Dairəvi qüllə, Qız qalası kimi tarix-memarlıq abidələrini, Şəhri Şərifan kimi arxeoloji abidələri qeyd etmək olar.

Məmmədbəyli kəndində yerləşən və ölkə əhəmiyyətli abidə kimi qeydə alınan Xacə Yəhya Məhəmməd oğlu türbəsi tikinti formasına görə Səkkizguşəli türbə adlı ilə də tanınır. Memarlıq üslubu ilə seçilən türbə 1304-1305-ci illərdə inşa olunub. Türbənin ətrafında Orta əsr qəbiristanlığı yerləşir. Tarixi tikilinin səkkizbucaqlı formada piramidalı günbəzlə tamamlanan divarları xaricdən və daxildən yonulmuş daşla üzlənib.

Türbənin mövcud olduğu ərazi kəndin ən hündür yerində yerləşir. Abidənin günbəzi iki qatdan ibarətdir. Daxili günbəz sferik, xarici günbəz isə piramidal formadadır. 1975-ci ildə yeraltı sahə təmizlənərkən türbənin sərdabəsi üzə çıxıb. Sərdabənin döşəməsi yaxşı cilalanmış daşlarla hörülüb. Orta əsrlərdə belə türbələr feodal əyanlarının və varlı şəxslərin qəbri üstündə ucaldılarmış.

Türbənin maraqlı və orijinal kitabəsi var. Kitabə qapı yerindən yuxarı qövsvarı çatılmış bütöv daş üzərində həkk olunub. Ölçüsü 1,45 x 0,90 metrdir. Nəsx xətti ilə yazılmış altı sətirlik ərəbdilli kitabə oyma üsulunda işlənilib. İki sətirdə türbənin Məhəmməd əl-Hacın oğlu Yəhyanın şərəfinə hicri tarixi ilə 704-cü ildə (miladi 1305-ci il) tikildiyi göstərilib. Müəlliflərin verdiyi məlumata görə, türbənin memarı və bənnası Əli Məcdəddin olub. Araşdırmaçıların fikrincə, Xacə Yəhya Məhəmməd oğlu dövrünün böyük alimlərindən olub.

İşğala son qoyulduqdan sonra azad olunmuş ərazilərdə yerləşən tarix-memarlıq abidələrinin bərpa və konservasiya edilməsi istiqamətində müəyyən işlər həyata keçirilir. İnanırıq ki, yaxın zamanda Zəngilandakı Səkkizguşəli türbə də bərpa olunaraq, əvvəlki əzəmətinə qaytarılacaq.

**Fariz HÜSEYNLİ**

# "Aşıq Ələsgərin poetik və musiqi dünyası"




Türk dünyasının böyük saz-söz ustadı Aşıq Ələsgərin 200 illik yubileyi münasibətilə daha bir nəşr işıq üzü görüb.

"Aşıq Ələsgərin poetik və musiqi dünyası" adlı kitabın elmi redaktoru və ön söz müəllifi, mərhum filosof və musiqişünas, professor Babək Qurbanovdur.

Kitaba Xalq şairi Osman Sarıvəllinin Aşıq Ələsgərin 150 illiyi ilə bağlı yazdığı "Qüdrətli şair, ustad sənətkar" adlı tədqiqat əsəri ilə yanaşı, sənətşünaslıq doktoru, professor İlqar İmamverdiyevin ustad aşığın 200 illiyi münasibətilə nota saldığı 200 saz havası daxil edilib.

Kitab xalq yaradıcılığı və aşıq sənəti ilə məşğul olan mütəxəssislər, saz ifaçılığının tədrisini həyata keçirən pedaqoqlar, tələbələr, habelə Azərbaycanın milli musiqi irsinə maraq göstərən hər kəs üçün maraqlı mənbədir.

# Laçında qəbirüstü at fiqurları aşkar edilib



Laçın rayonunun Ərdəşəvi kəndi yaxınlığında "El qəbiristanlığı" deyilən ərazidə qəbirüstü at fiqurları aşkar olunub.

Bu barədə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətindən məlumat verilib.

Bildirilib ki, hazırda işğaldan azad olunmuş ərazilərdə Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti tərəfindən monitorinqlər həyata keçirilir. Daşdan yonulmuş at fiqurları monitorinqlər zamanı aşkar edilib. Abidələrin qeydiyyata alınması və qorunması istiqamətində tədbirlər görülüb.

# Nizami yaradıcılığında xalq oyun və mərasimləri

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi öz parlaq ideyaları ilə bu gün dünyanın yüzdən çox ölkəsində tanınır, qəbul olunur. Səkkiz əsrlik zaman kəsiyi Nizami əsərlərinin təravətini soldura bilməyib. Onun müasir günümüzlə səsləşən əsərləri aktuallığını həmişə qoruyub saxlayacaq.

Nizami Gəncəvi əsərləri farsca qələmə alınsa da, bu nümunələrin mayası Azərbaycan xalqının ruhu ilə yoğurulub. Bu əsərlərdə doğma yurdumuzun keçmişi, zəngin təbiəti, əcdadlarımızın yaşam tərzi, mədəni irsi ilə bağlı çoxsaylı bilgilər verilir. Aforizmlər, xalq yaddaşından süzülüb gələn deyim-duyumlar şairin əsərlərinin əsasını təşkil edir.

Görkəmli ədəbiyyatşünas, nizamişünas alim, akademik Həmid Araslı bu barədə yazır: "Nizamidə yalnız Azərbaycan xalqına məxsus ifadə xüsusiyyətləri vardır ki, sonrakı şərhçilər üçün aydın olmamışdır. Bu xüsusiyyətləri anlamaq üçün Azərbaycan xalq dilinin incəliklərini bilmək lazımdır. Nizaminin yaradıcılığında olan sözlərin əsas hissəsinə biz "Dədə Qorqud" dastanında rast gəlirik. Nizami yaradıcılığında bu hala tez-tez rast gəlinməsi onun dastanı sevərək dinləməsinə sübutdur".

Nizami poemalarının başlıca mövzusunu keçmişin mühüm hadisələri, habelə Şərq mühitinin əfsanə və rəvayətləri təşkil edir. Lakin bu hadisələr və əfsanələrlə əlaqədar olaraq təsvir edilən həyat, adət və ənənə, toy, yas mərasimləri Azərbaycan xalqının həyatından götürülərək bədii surətdə ifadə edilib. Şairin əsərlərində təsvir edilən bir çox məsələlər bu gün də xalqımızın həyat və məişətində yaşadıldığını görə bilərik. Buna misal olaraq toy mərasimlərini qeyd etmək olar. "İsgəndərnamə" poemasından bir nümunəyə diqqət yetirək:



*Barbədin nəğməsi, Nəkisanın səsi,*
*Zöhrənin alnını torpağa sürtürdü.*
*Gah rudun nəğməsi saqiyə deyirdi:*
*Bir cam ver, yaşasın bu eyş!*
*Gah mey camdan Barbədə deyirdi:*
*Çal ki, bu ili xoş başa vurasan!*

Nizami Gəncəvinin poemalarında toy məclislərinin Xosrovun Məryəm və Şirinlə, İbn Səlamın Leyli və İsgəndərin Rövşənəklə evlənməsi münasibətilə keçirildiyi qeyd edilir. Toy səhnələrinə, xüsusilə "Xosrov və Şirin" poemasında daha geniş yer verilib. Toy gününün başlanğıcı münəccimlər tərəfindən müəyyən edilir. Mərasimin bütün mərhələləri (qız seçmə, qız bəyənmə, elçilik, nişan – üzük taxma, kəbinin kəsilmə qaydası, xına yaxma, qız evinə toy hədiyyələrinin göndərilməsi, gəlin bəy evinə yollananda onun başına xəzinə tökülməsi) bu əsərdə maraqlı boyalarla təsvir edilir. Toy günü çalğıçıların müşayiəti ilə müğənnilərin mahnı oxumalarına, rəqs musiqisinə geniş yer verildiyini görə bilirik. "Xosrov və Şirin" poemasındakı bu adət-ənənənin bənzərinə Ü.Hacıbəylinin "Arşın mal alan" operettasında Əsgərin xalasının simasında rast gəlirik. "Leyli və Məcnun" poemasında Məcnunun atası ümidsiz bir halda Leyligildən qayıtdıqdan sonra oğlunu qüssədən qurtarmaq üçün ona etdiyi nəsihətdə belə deyir:

*Qarşında yüz tanış ola-ola sən*
*Nədən yad qızına könül verirsən.*
*Gəl bu gözəllərə, cananlara bax,*
*Səninçün nazəndə bir qız alaq...*

Bu kiçik parçada Azərbaycan xalq məişətindən alınmış ata-ananın qız bəyənməkdəki rolu açıq gözə çarpır.

Nizami yaradıcılığında ayin və dəfn mərasimləri ilə bağlı məqamlar da diqqətçəkəndir. "Xosrov və Şirin" poemasında Şirin Fərhadı böyük hörmətlə dəfn etdirir, türbəsi üzərində günbəz ucaldır, onu ziyarətgaha çevirir. Cahan Pəhləvanın vəfatı vaxtı nəfir, təbil və kusun sədaları hər tərəfə yayılırdı. Vida mərasimi təbilin səslənməsi ilə başlanırdı. Dəfn günündən sonra yas mərasimində rudun və sazın müşayiəti ilə ağılar deyilir. Leyli Məcnunun atasının ölümünə yas saxlayır, matəm paltarı geyinir, Xosrov Bəhram Çubinin ölümü ilə əlaqədar üç gün yas saxlayır, onun özünü isə məqbərədə qızıla, zərə tutulan tabutda dəfn edirlər. Müəllifin yaradıcılığında yas mərasimləri Fərhad, Xosrov, Leyli, İsgəndər, Məhinbanu, Bəhram və Daranın ölümü ilə əlaqədar səhnələrdə təsvir edilib.

Ədəbiyyatşünas alim Məmməd Ələkbərovun 1947-ci ildə nəşr olunmuş "Nizami yaradıcılığında xalq mərasimləri" məqaləsində qeyd olunur ki, şair öz dövründə xalq arasında yaşayan adətləri böyük ustalıqla və özünəməxsus məharətlə qələmə alıb. Qeyd edək ki, sonralar M.Ələkbərovun "Nizami Gəncəvi və Azərbaycan xalq yaradıcılığı" monoqrafiyası çap olunub.

Professor Səadət Abdullayevanın "Nizamidə musiqi, musiqidə Nizami" kitabında qeyd edilir ki, şairin dövründə toy və bayram günlərində keçirilən xalq oyun-tamaşalarında çoxlu sayda mütrüb, rəqqas, oyunbaz və hoqqabazlar iştirak edirdi. O vaxt löbət (gəlincik, oyuncaq) tamaşası daha çox yayılmışdı. Bu tamaşa müəyyən vaxtlarda keçirilirdi. On rəngdə paltar geyinən oyunbaz pərdənin arxasında çoxlu sayda löbəti düzərdi. Hamı səbirsizliklə pərdə arxasından kimin çıxacağını gözləyirdi. Adətən, oyunbazlar pərdə arxasında müxtəlif yaşlı gəlinciklərlə qəribə oyunlar çıxarır, cürbəcür hərəkətlərlə tamaşaçıları əyləndirirdilər. Sonralar löbət tamaşası Azərbaycanda "Kilimarası" adı ilə yayılıb. Nizami dövründə "Xəyal oyunu" adlı tamaşa da göstərilib:

*Bu qədim pərdənin hiylələrindən*
*Xəyala döndüm, necə xəyalla*
*oynamayım?!*

Pərdə arxasında müxtəlif təsvirləri işıqlandırılaraq, onların kölgələrini hərəkətə gətirirdilər. Tamaşanı başqa iştirakçılarla yanaşı, müğənni və iki çalğıçı müşayiət edirdi. Əl cəldliyi ilə cürbəcür oyunlar göstərən hoqqabazların – gəzərgi fokusçuların "Hoqqa" oyunu haqqında da şairin əsərlərində söz açılır. Toy və el şənliklərində "Məsxərə" komik oyunu göstərən məsxərəbaz, "Şəbəd" tamaşası isə istehza, təqlid üzərində qurulurdu. "Üzük-üzük" oyunu, adətən, Novruz bayramında icra edilirdi. Şair Novruzu "İsgəndərnamə", "Leyli və Məcnun" və "Xosrov və Şirin" poemalarında təsvir edib. Dahi mütəfəkkir Novruz bayramını əfsanəvi İran şahı Cəmşidin taxta əyləşməsi günü ilə əlaqələndirir. Deyilənə görə, həmin gün martın 22-nə, yəni gündüzlə gecənin bərabərləşdiyi vaxta düşüb. Bu zaman o, xalqın toplantısında onların şikayətlərinə baxaraq ehtiyaclarını təmin edib və hamını ədalətə çağırıb. Bununla da xalqın güzəranı yaxşılaşıb.

Nizami Novruz bayramına üstünlük verən Zərdüştilərin bu mərasimlə bağlı görüşlərindən söz açır. İnsanlar bayrama böyük həvəslə hazırlaşırdılar. Əlləri xınalı, üzlərinə bəzək verən gəlinlər, qızlar gül dəstələri ilə evlərindən çıxaraq meydana yığışırdılar. Muğ adəti üzrə muğların, yəni atəşpərəstlərin kahininin sağlığına al şərab qaldırar, əfsanə söyləyər, rəqs edib əl çalardılar. Sonra hər biri öz məclisini keçirərdi.

"İsgəndərnamə" poemasında göstərilir ki, İsgəndər İrana və Azərbaycana qədəm qoyduğu zaman, orada Novruz bayramı keçirilirdi. Belə ki, onu qarşılayan Nüşabə tonqal qalatdırır, süfrəyə müxtəlif növlü meyvə, şirniyyat düzdürür. Şair Novruzu ən böyük bayram günü sayır.

Nizami Gəncəvi "Xosrov və Şirin" poemasında öz dövründə geniş yayılan atüstü oyun – çövkən barədə də söz açıb. Müəllif Bəhram şahın çövkən oyununda mahir olmasını göstərir, hətta qadınların da bu oyunda iştirakını qeyd edir.

Şairin əsərlərində adını çəkdiyi oyun-tamaşaların bir çoxu indi də xalqımız tərəfindən yaşadılır. Belə ki, dövrümüzdə zurnaçılar ansamblının müşayiəti ilə ənənəvi çövkən yarışları keçirilir. Xatırladaq ki, 2013-cü ildə "Qarabağ atüstü oyun ənənəsi – çövkən" nominasiya faylı UNESCO-nun Təcili qorunmaya ehtiyacı olan qeyri-maddi mədəni irs siyahısına daxil edilib.

Nizami yaradıcılığında xalq oyunları və mərasimlərindən gətirdiyimiz bir neçə nümunə böyük şairin xalq yaddaşına nə qədər bağlı olduğunu deməyə əsas verir.

**Lalə AZƏRİ**

# Dahi şairin sirlər və hikmət kəhkəşanı

Dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xəmsə"yə daxil olan ilk irihəcmli əsəri "Sirlər xəzinəsi" ("Məxzənül-əsrar") poemasıdır. Şair əsərin yazılma tarixini belə ifadə edib:

*Beş yüz ilə yetmiş olub, qalx, oyan,*
*Gün qalxıb, məclisə gəl durmadan.*

Ədəbiyyatşünasların fikrincə, bu beyt və bir sıra başqa faktlar əsərin 1174-cü ilin avqustundan 1175-ci ilin iyul ayına qədər olan dövrdə yazıldığını söyləməyə əsas verir. Əruzun səri bəhrində yazılan poema Ərzincan hakimi Məlik Fəxrəddin Bəhram şaha həsr olunub.

2288 beyt olan əsəri ayrı-ayrı vaxtlarda Azərbaycan dilinə Süleyman Rüstəm, Abbasəli Sarovlu və Xəlil Rza Ulutürk tərcümə edib. "Sirlər xəzinəsi" didaktik poema janrının ən qiymətli nümunələrindən hesab olunur.

Nizami haqqında geniş tədqiqatların müəllifi olan tanınmış ədəbiyyatşünas Azadə Rüstəmova bu əsər haqqında bəhs edərkən deyib: "Sirlər xəzinəsi"ndə duyğuya, iradəyə nüfuz güclüdür".

İdeya baxımından "Kəlilə və Dimnə", "Qutadqu-bilik", "Hədiqətül-həqiqə", "Siyasətnamə", "Qabusnamə", "Çəhar məqalə" kimi əsərlərə yaxın olan "Sirlər xəzinəsi" həm də onlardan fərqlənir. Poema müqəddimə, 20 məqalət (söhbət) və bu məqalətləri epik lövhələrlə əks etdirən 20 kiçik mənzum hekayədən ibarətdir. Böyük şair əsərin əvvəlində tovhid, minacat, nət adlı başlıqlar altında Allahdan, peyğəmbərdən söhbət açır.

Əsərdəki bir çox məqalə və hekayələri müəllifi düşündürən problemlərə həsr edilib. "İnsanın mərtəbəsi haqqında" birinci, "Ədalət və insafı gözləmək haqqında" ikinci, "Padşahın rəiyyətə qayğı göstərməsi haqqında" üçüncü məqalətlər, hekayətlərdən isə "Özündən naümid olub bağışlanan padşahın hekayəsi", "Nuşirəvan və bayquşların söhbəti", "Sultan Səncər və qarı", "Zalım padşahla zahidin dastanı", "Bir şahzadənin hekayəsi" və başqaları mütəfəkkir ədəbin dövlət və cəmiyyət münasibətlərini, humanist dəyərləri əks etdirir. Dahi şair dövrünün zalım hökmdarlarını bəzən axirətlə qorxudur. Gah da zülmün bu dünyada onlara zərər yetirəcəyini xatırladır. Bəzən də onları xalqın qəzəbi ilə hədələyir...

"Nuşirəvan və bayquşların söhbəti" romantik planda və poetik bir dillə nəql olunur.



Əsərin qəhrəmanı Sasani hökmdarı Nuşirəvanın timsalında şair öz dövrünün mənzərəsini yaradıb. Hökmdarın ov zamanı qarşılaşdığı mənzərə XII əsrin mənzərəsi, Nizaminin gördüyü faciənin təsviridir. Şair ölkədə ədalətsizliyin, qətl və qarətin həddini aşdığını göstərmək üçün maraqlı bir ədəbi mənzərə yaradır: xarabalıq sevən bayquşlar şahı yaxşı tanıyır. Onlar əmindirlər ki, Nuşirəvan nə qədər şahdırsa, az bir vaxtda onlarla kənd xarabaya çevriləcək. Quş dili bilən vəzirin köməyi ilə bayquşların söhbətini dinləyən Nuşirəvan xəcalət çəkir. Əməllərini yadına salır və peşman olur.

"Zalım padşahla zahidin dastanı" və "Sultan Səncər və qarı" hekayətləri məzmunca bir-birinə bənzəyir. Əgər "Sultan Səncər və qarı"da şahın məmurlarının cinayətlərinə laqeydliyi əks olunursa, "Zalım padşahla zahidin dastanı"nda isə hökmdar daha qəddardır. Hər tərəfi casuslarla doldurur. Haqq deyən dilləri kəsdirir və şahın zülmündən şikayət eləyənləri məhv etdirir. Ölkədə şahın əleyhinə danışmaq ən qorxulu cinayət sayılır. Ona görə də bu hekayə "Sirlər xəzinəsi" əsərinin sanki açarı hesab edilib. Hekayətdə iki əsas surət var: zalım padşah və doğruçu qoca. Zalım padşah ordusuna, xəzinəsinə, casuslarına güvənir, doğruçu qoca isə düzlüyə. Zalım padşah hamını qanla qorxudaraq susdurmaq, özünə tabe etmək və qul vəziyyətinə salmaq istəyir. Doğruçu qoca isə düzlüyündən geri çəkilmir. Padşahın inadını qırır və özünə təslim edir. Düzlüyün, haqq-ədalətin qarşısında cəlladın qılıncı əlindən düşür...

"Bir şahzadənin hekayəsi"ndə şair yeniliklə köhnəliyin rəqabətini verib. Hekayətdə göstərilir ki, Mərvdə yaşayan gənc bir şahzadə ölkəni yeni qayda ilə idarə etmək istəyir. Ancaq varlı adamların müqaviməti ilə qarşılaşır. Köhnələr yeniliyə qarşı üsyan edir və gənci ölümlə hədələyirlər. Ruhdan düşən gənc şahzadə fikirli halda yuxuya gedir. Röyada bir qoca ona çıxış yolu göstərir və deyir:

*Ey təzə ay, köhnə olan bürcü sök,*
*Ey təzə gül, köhnə budaqları tök.*
*Ölkə səninlə ola ta bərqərar,*
*Şadlıq elə, sən də yaşa bəxtiyar.*

Gənc şahzadə başa düşür ki, qələbə çalmaq üçün maneələri aradan götürmək lazımdır. Beləliklə, o, köhnə zərərli qayda-qanunların üzərindən xətt çəkir. Yeni mütərəqqi yol seçir. Çox keçmir ölkə yeniləşir və abadlaşır. Bu, Nizami dövrü üçün son dərəcə cəsarətli bir addım və yenilik hesab olunur...

"Sirlər xəzinəsi"nə daxil olan digər məqalətlərdə də Nizaminin mütərəqqi baxışları öz əksini tapıb. O, şahları və məmurları ədalətə çağırır, keçmişdən nəticə çıxarmalarını tövsiyə edir.

Nizaminin bu poeması da əsrlər öncədən ölkəmizin hüdudlarından kənarda tanınmağa başlayıb. 1786-cı ildə Hindistanda çap edilən "Səfineyi-Asiyayi" məcmuəsinin ikinci nömrəsində "Sirlər xəzinəsi"nin iyirmi məqaləti dərc edilib. Əsər V.Conson tərəfindən ingilis, L.Hayn tərəfindən isə latın dillərinə tərcümə olunub. Sonra əsər Rusiyada işıq üzü görüb, Avropada təkrar nəşr edilib. Ümumiyyətlə, "Sirlər xəzinəsi" Avropa ədəbiyyatşünaslığında geniş maraq doğurub.

XIX əsrin II yarısında Nizami irsi, o cümlədən "Sirlər xəzinəsi"nin Avropada elmi-tənqidi nöqteyi-nəzərdən öyrənilməsi sahəsində macar alimi V.Baxerin fəaliyyəti diqqəti xüsusilə cəlb edir. Onun "Nizami" monoqrafiyası ilə şairin həyat və yaradıcılığının, qismən də "Sirlər xəzinəsi"nin tədqiqində yeni bir mərhələ başlayır. V.Baxer "Sirlər xəzinəsi" haqqında o vaxta qədər deyilməmiş yeni mülahizələr irəli sürür. Əsərin ideya istiqaməti, yazılma tarixi və ithaf edildiyi şəxsin kim olması problemləri üzərində dayanıb.

Hind alimi Ağa Əhməd ibn Əhmədin 1873-cü ildə yazdığı "Həft asiman" ("Yeddi səma") adlı elmi əsəri "Sirlər xəzinəsi"nin tədqiqi sahəsində mühüm addım hesab edilir.

**Savalan FƏRƏCOV**

# Rəssamlığın tədrisi yüksək olanda



Azərbaycan rəssamlığının tarixi çox-çox uzaqlara gedib çıxsa da, onun tədrisi məsələsinin öyrənilməsinə uzun müddət diqqət yetirilməmişdir. Yalnız müstəqillik illərində təhsil tarixini öyrənən tədqiqatçı-alim E.Vahabova bu problemi tədqiqat obyektinə çevirə bilmişdir.

Bundan əlavə, məlum olmuşdur ki, bu sənətin öyrənilməsi metodikası ilə bağlı hələ Orta əsrlərdə yazılmış bir çox yazılı materiallar bizim dövrə gəlib çatmışdır. Daha dəqiq desək, XV-XVII əsrlərdə Yaxın və Orta Şərq ölkələri xalqlarının mədəniyyətinə və incəsənətinə həsr edilmiş bir sıra mənzum və mənsur risalələr yazılmışdır. Bütün bunlarla yanaşı, demək lazımdır ki, XII-XVII əsrlərdə sənətkarlığa aid yazılmış risalələrin heç birində rəssamlığın sırf əməli və nəzəri məsələlərindən bəhs edilmir. Bu nöqteyi-nəzərdən XVI-XVII əsrlərdə yaşamış Azərbaycan şairi və rəssamı Sadiq bəy Əfşarın "Qanun-üs-süvər" ("Təsvirlər qanunu") adlı mənzum risaləsi, demək olar ki, nadir bir nümunə hesab edilə bilər. Zamanına görə çox dəyərli olan və məzmunu on altı bölməni əhatə edən risalədə Sadiq bəy Əfşar verdiyi texniki təlimat və müxtəlif göstərişlər hər kəsə müstəqil olaraq yaradıcı proseslə məşğul olmağa imkan verir, desək, həqiqəti söyləmiş olarıq.

XIX əsrdə Mir Möhsün Nəvvabın Şuşadakı üsuli-cədid məktəblərinin birində dərs dediyini xatırlasaq, onun burada ən azı rəssamlığa meyilli uşaqlara nəzəri-təcrübi dəstək verdiyini ehtimal etmək olar. Bu fənnin sonrakı illərdə tədrisi yalnız Tiflisdə Qafqaz Təhsil Dairəsinin yaradılmasından – Bakıda da bəzi tədris müəssisələrində bu fənnə diqqət yetirilməsindən sonra baş tutmuşdur. Əlavə edək ki, Azərbaycandakı neft milyonçuları da himayələrində olan obyektlərdə rəsmetmə fənninin tədrisinin təcrübi əhəmiyyətini nəzərə almaqla, onun tədrisini genişləndirməyə müəyyən təkan veriblər. Ölkənin sovetləşməsindən sonra isə bu sahədə vəziyyət yaxşılığa doğru xeyli dəyişmişdir. Bakıda xüsusi rəssamlıq məktəbinin açılması ilə yanaşı, orta məktəblərdə də rəsmetmə fənninin tədris proqramına daxil edilməsi, bu sahəyə olan marağın güclənməsinə səbəb olmuşdur. Zamanın axarında təsviri sənətə aid dərsliklər də yazılmışdır. H.Ələkbərov, V.Xəlilov, M.Məmmədova, Ş.Vəliyeva və başqalarının müəllifliyi ilə çap olunan dərsliklər, nə qədər mövcud proqramlara müvafiq tərtib olunsalar da, məna-məzmun və metodik göstərişlərinə görə qənaətbəxş deyildilər. Odur ki, müstəqillik dövründə yeni dərsliklərin hazırlanması günün tələbinə çevrilmişdi. Bu önəmli məsələyə gənc mütəxəssislərin maraq göstərmələri müasir ruhlu tədris materiallarının hazırlanmasını şərtləndirdi. Belə vəsaitləri hazırlayan gənclərdən biri də Kəmalə Cəfərzadə idi.

Onun 2008–2016-cı illərdə yeni fənn kurikulumu əsasında hazırlanmış I-IX siniflər üçün "Təsviri incəsənət" dərslik komplektləri (dərslik, metodik vəsait, iş dəftəri) bu sahədə fəaliyyət göstərən mütəxəssislərin ciddi marağına səbəb olmuşdu. Məsələ burasındadır ki, sovet dönəmində əsasən I-VI siniflərdə tədris olunan təsviri incəsənət fənninin əhəmiyyətinin dərki, müstəqillik illərində onun əhatə dairəsinin bir az genişləndirilməsini – I-IX siniflərdə öyrədilməsini şərtləndirdi. Bu mənada yuxarı siniflərdə bu fənnin proqramını uşaqların yaş dərəcəsinə müvafiq məntiqli məna-məzmun tutumu ilə tərtib etmək elə də asan deyildi. Amma Kəmalə xanımın rəssam-pedaqoq yanaşması sayəsində bu problemli məsələnin uğurlu həlli tapıldı. Elə bunun nəticəsidir ki, yeni proqramları və dərslikləri əhatə edən mövzular bütün uşaqlarla yanaşı, bu sahəyə ciddi maraq göstərənlərin – gələcəyini rəssamlıqla bağlamaq arzusunda olanların fəaliyyətinə yönəldici təsir göstərə bilmək tutumundadır. 2009-2010-cu tədris ilində Kəmalə Cəfərzadənin ölkə başçısının sərəncamı ilə keçirilən "Ən yaxşı müəllim" müsabiqəsində I yerə layiq görülməsi, 2014-cü ildə isə "Tərəqqi" medalı ilə təltif olunması onun rəsmetmənin orta məktəblərdə tədrisinə verdiyi töhfəyə layiqli qiymət oldu.

Onun rəsmetmənin metodikası ilə bağlı tətbiq etdiyi yanaşmaların sorağı az sonra müxtəlif beynəlxalq forum və müsabiqələrdən, yerli treninq və təlimlərdən gəldi. Kəmalə xanımın "Azərbaycan müəllimi" qəzetində, "Kurikulum" elmi-metodik jurnalında, "Memarlıq, şəhərsalma tarixi və bərpası" toplusunda, Azərbaycan Memarlıq və İnşaat Universitetinin Elmi əsərlər toplusunda məqalələrinin və dərs nümunələrinin dərc olunması, konfranslarda çıxışları da başladığı işin tanınma və yayılma miqyasını genişləndirdi.

Kəmalə Cəfərzadə yetişməkdə olan yeni nəslə təsviri sənətin nəzəri-təcrübi sirlərini də öyrədir, 2018-ci ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin Rəssamlıq fakültəsində və özünün təsis etdiyi "KamART" incəsənət qalereyasında nəzəri düşüncələrini təcrübi olaraq həyata keçirir. Qalereyada məşğul olan uşaqların son illər respublikada keçirilən sənət yarışmalarında uğurlar qazanmaları da, heç şübhəsiz, burada gerçəkləşən məşğələlərin metodiki baxımdan düzgün aparılmasının nəticəsidir.





Kəmalə xanımın rəngkarlıq və qrafika sahəsində yaratdığı əsərlərin davamlı olaraq müxtəlif sərgilərdə nümayiş etdirməsini də yaxşı hal – nəzəriyyə ilə təcrübənin vəhdətinin uğurlu nəticəsi saymaq mümkündür. Son illərdə ayrı-ayrı janrlarda ərsəyə gətirdiyi tablo və qrafik lövhələrdə onun realizm cərəyanına tapınmağının cəlbedici nəticələrini müşahidə edirik. Müəllifin mənzərə və natürmort janrlarına xüsusi rəğbət bəslədiyi qabarıq görünməkdədir. Natürmort janrının ənənəviləşmiş estetikasına yeni və incə çalarlar əlavə etməyə çalışması isə davamlı müşahidələrinin nəticəsi hesab olunmalıdır. Təsviri sənətin tədrisi metodikası sahəsində öz sözünü demiş rəssam-pedaqoqa yaradıcılığında da yeni uğurlar arzulayırıq.

**Ziyadxan ƏLİYEV**
**Əməkdar incəsənət xadimi, professor**

## Xatirə təqvimi 29 oktyabr – 2 noyabr

### Azərbaycan

**29 oktyabr 1941** – Xalq artisti Ağaxan Əli oğlu Salmanlı (1941 29.2.2020) Bakıda doğulub. Dövlət Gənc Tamaşaçılar Teatrının aktyoru olub. Televiziya tamaşalarında çəkilib. Uşaqlar üçün pyeslərin müəllifidir, bir neçə tamaşaya quruluş verib.

**29 oktyabr 1949** – Tanınmış aktyor Şahin Cəbrayılov (1949 – 5.9.2007) anadan olub. Akademik Milli Dram Teatrında çalışıb. Televiziya tamaşalarında, filmlərdə ("Yol əhvalatı", "Qızıl uçurum") çəkilib.

**29 oktyabr 1993** – Zəngilan rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu gün idi. 27 il işğal altında qalan Zəngilan 44 günlük Vətən müharibəsində, 2020-ci il oktyabrın 20-də azad edildi.

**29 oktyabr 2004** – Tanınmış rəssam, animator, kitab illüstratoru Nazim Məmmədov (1934–2004) vəfat edib.

**30 oktyabr 1880** – Məşhur tarzən, Xalq artisti Qurban Bəxşəli oğlu Pirimov (1880 – 29.8.1965) Şuşa qəzasının Abdal-Gülablı (indiki Ağdam rayonu) kəndində doğulub. Xanəndə Cabbar Qaryağdıoğlu və kamançaçı Saşa Oqanezaşvili ilə birlikdə yaratdığı muğam üçlüyündə 20 ilə yaxın fəaliyyət göstərib. 1920-ci ildən Opera və Balet Teatrının solisti olub.

**30 oktyabr 1907** – Jurnalist, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Adil Ələddin oğlu Əfəndiyev (1907-1973) Bakıda doğulub. Respublika Jurnalistlər Birliyinin ilk sədri olub. Rusca-azərbaycanca üçcildlik lüğətin tərtibçisidir, rus və Avropa yazıçılarının əsərlərini Azərbaycan dilinə tərcümə edib.

**30 oktyabr 1928** – Tanınmış sənətşünas alim, akademik Rasim Səməd oğlu Əfəndiyev (1928 – 13.2.2010) Qazaxda doğulub. "Azərbaycan dekorativ-tətbiqi sənəti", "Azərbaycanın bəzək sənəti", "Azərbaycan daş plastikası" kitabları xarici dillərə tərcümə olunub. AMEA Memarlıq və İncəsənət İnstitutunun direktoru işləyib.

**30 oktyabr 1992** – Əməkdar incəsənət xadimi, şair Tofiq Mütəllim oğlu Mütəllibov (13.4.1929 – 1992) vəfat edib. Uşaqlar üçün çoxsaylı əsərlərin müəllifidir.

**30 oktyabr 2005** – Xalq artisti, müğənni, bəstəkar Məmmədbağır Bağırzadə (21.7.1950 – 2005) vəfat edib. Xalq və bəstəkar mahnılarının mahir ifaçısı, populyar mahnıların ("Kimlərə qaldı dünya?", "Yadıma düşdü") müəllifi olub.

**31 oktyabr 1910** – Əməkdar artist Ağa Əsgər oğlu Məmmədov (1910-1973) Cənubi Azərbaycanın Ərdəbil şəhərində doğulub. Tiflis Azərbaycan Dram, Gəncə Dövlət Dram teatrlarının aktyoru olub.

**31 oktyabr 2012** – Bakıda görkəmli opera müğənnisi, SSRİ Xalq artisti Bülbülün abidəsinin (heykəltəraş – Akif Əsgərov) açılışı keçirilib. Mərasimdə Prezident İlham Əliyev iştirak edib.

**1 noyabr 1923** – Qəzəlxan şair Əliağa Bakir (Əliağa Hacağa oğlu Rzayev; 1923-1998) Bakıda anadan olub.

**1 noyabr 1939** – Azərbaycan SSR Xalq Komissarları Soveti Nizami Gəncəvinin 800 illik yubileyinə hazırlıqla bağlı dahi şairin həyat və yaradıcılığından bəhs edən muzeyin (indiki Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi) yaradılması barədə qərar qəbul edib.

**1 noyabr 1945** – Kinorejissor, ssenarist Nicat Feyzullayev (1945 – 4.5.2015) Bakıda tanınmış rəssamlar Lətif Feyzullayev və Vəcihə Səmədovanın ailəsində anadan olub. "Küçələrə su səpmişəm" bədii və çoxsaylı sənədli filmlər çəkib.

**1 noyabr 1965** – Məşhur xanəndə, Xalq artisti Seyid Şuşinski (Mir Möhsün ağa Seyid İbrahim oğlu; 12.4.1889 – 1965) vəfat edib. 1930-60-cı illərdə Azərbaycan Dövlət Filarmoniyasının solisti olub, pedaqoji fəaliyyət göstərib.

**1 noyabr 2005** – Əməkdar artist Bürcəli Veysəl oğlu Əsgərov (15.2.1933 – 2005) vəfat edib. Akademik Milli Dram Teatrında çalışıb. Filmlərdə, televiziya tamaşalarında çəkilib.

**2 noyabr 1934** – Şair, Əməkdar müəllim Oqtay Rza (Oqtay Məhərrəm oğlu Rzalı; 1934 – 18.8.2019) Salyan rayonunun Qalalı kəndində doğulub. N.Tusi adına ADPİ-də işləyib. Dünya xalqları ədəbiyyatından tərcümələr edib.

**2 noyabr 1937** – Görkəmli bəstəkar, Xalq artisti Emin Sabitoğlu (Mahmudov; 1937 – 18.11.2000) anadan olub. "Hicran", "Bankir adaxlı" və s. musiqili komediyaların, populyar mahnıların müəllifidir. Tamaşalara, filmlərə ("Bizim Cəbiş müəllim", "Gün keçdi", "Dədə Qorqud", "Onun bəlalı sevgisi", "İstintaq" və s.) musiqi bəstələyib.

**2 noyabr 1947** – Əməkdar artist Telman Rüstəm oğlu Əliyev (1947 – 4.7.2017) Şuşa şəhərində anadan olub. Gəncə, Akademik Milli Dram teatrlarında çalışıb, filmlərdə çəkilib.

**2 noyabr 1964** – Əməkdar artist Murad Məmmədrza oğlu Muradov (1884-1964) vəfat edib. Ağdam rayonunun Muradbəyli kəndində doğulub, Akademik Dram Teatrının aktyoru olub.

**2 noyabr 1997** – Azərbaycanın ilk sənədli film rejissorlarından olan Niyazi Bədəlov (1909-1997) vəfat edib.

**2 noyabr 1988** – Görkəmli aktrisa, Azərbaycanın və SSRİ-nin Xalq artisti Hökumə Abbasəli qızı Qurbanova (11.6.1913 – 1988) vəfat edib. 1938-ci ildən Akademik Dram Teatrında çalışıb. Filmlərdə çəkilib.

### Dünya

**29 oktyabr 1863** – Beynəlxalq Qırmızı Xaç Komitəsinin (İnternational Committee of the Red Cross - İCRC) yarandığı gündür. İsveçrəli xeyriyyəçi və ictimai xadim Anri Dünan (Jean Henri Dunant; 1828-1910) tərəfindən təsis edilən humanitar təşkilat silahlı münaqişələrdən zərər çəkənlərə yardım göstərir.

**30 oktyabr 1751** – İngilis-irland yazıçısı Riçard Brinsli Şeridan (Richard Brinsley Sheridan; 1751-1816) anadan olub.

**30 oktyabr 1839** - İngilis əsilli Fransa rəssamı, impressionizmin tanınmış nümayəndəsi Alfred Sisley (1839-1899) anadan olub.

**30 oktyabr 1871** – Fransız şairi, yazıçı, filosof Pol Valeri (Paul Valery - Ambroise Paul Toussaint Jules Valery; 1871-1945) anadan olub.

**31 oktyabr 1922** – SSRİ-nin Xalq artisti Anatoli Papanov (1922 - 5.8.1987) anadan olub. Filmləri: "Dirilər və ölülər", "Avtomobildən qorun", "Brilyant əl", "12 stul" və s.

**31 oktyabr 1993** – Dünya şöhrətli italyan kinorejissoru Federiko Fellini (Federico Fellini; 20.1.1920 – 1993) vəfat edib. Beş dəfə "Oskar" mükafatına (o cümlədən fəxri "Oskar") layiq görülüb. Filmləri: "Yol", "Kabiriya gecələri", "Şirin həyat", "Səkkiz yarım" və s.

**1 noyabr 1636** – Fransız şairi, ədəbiyyatşünas, klassisizmin nəzəriyyəçisi Nikola Bualo (Nicolas Boileau-Despreaux; 1636 – 13.3.1711) anadan olub.

**1 noyabr 1781** – Alman rəssamı Yozef Karl Ştiler (Joseph Karl Stieler; 1781-1854) anadan olub.

**2 noyabr 1699** - Fransız rəssamı Jan Batist Simeon Şarden (Jean Baptiste Simeon Chardin; 1699-1779) anadan olub.

**2 noyabr 1906** – İtalyan kino və teatr rejissoru Lukino Viskonti (Luchino Visconti di Modrone; 1906 – 17.3.1976) anadan olub. Filmləri: "Rokko və onun qardaşları", "İnteryerdə ailə portreti" və s.

**2 noyabr 1950** – İrland əsilli Britaniya yazıçısı, dramaturq, ədəbiyyat üzrə Nobel mükafatı (1925) laureatı Corc Bernard Şou (George Bernard Shaw; 26.7.1856 – 1950) vəfat edib.

**Hazırladı: Vüqar ORXAN**

# Xarəzm vilayətində Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri

Xəbər verdiyimiz kimi, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) təşəbbüsü ilə Özbəkistanın Xarəzm vilayətində Azərbaycan mədəniyyəti və ədəbiyyatı günləri keçirilib.

Vilayətin inzibati mərkəzi Urgənc şəhərindəki Dövlət Musiqili Dram Teatrında Azərbaycan mədəniyyəti və ədəbiyyatı günlərinin rəsmi açılışı olub. Tədbirdə Milli Məclisin Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevanın rəhbərliyi ilə nümayəndə heyəti iştirak edib.

Vilayət hakiminin müavini Batır Saidov azərbaycanlı qonaqları salamlayıb, ikinci dəfə vilayətdə təşkil olunan tədbirlərin iki ölkə arasında dostluğu və əməkdaşlığı möhkəmləndirdiyini qeyd edib. O, Özbəkistanda ta qədimdən böyük Azərbaycan şairləri Nizami Gəncəvi, Məhəmməd Füzuli, İmadəddin Nəsimi və digər klassiklərin çox sevildiyini vurğulayıb. Bildirib ki, bu şairlərdən ilhamlanan Xarəzm ədibləri əsərlər yaradıblar.



Millət vəkili Qənirə Paşayeva çıxışında bildirib ki, biz əlamətdar bir ildə görüşürük. Azərbaycanda 2021-ci il "Nizami Gəncəvi İli" elan edilib. Özbəkistanda isə bu il böyük şair Əlişir Nəvainin 580 illiyi qeyd olunur. "Böyük şairlər və filosoflar Heydər Xarəzmi, Məhəmməd Rizo Aqahi, Abu Reyhan Biruni, Pəhləvan Mahmud, Nəcmiddin Kubro kimi şəxsiyyətlər yetişdirmiş Xarəzm torpağına Azərbaycandan salam gətirmişəm", – deyə Q.Paşayeva vurğulayıb.

Özbəkistandakı Heydər Əliyev adına AMM-in direktoru Samir Abbasov bu qəbildən tədbirlərin milli və ortaq dəyərlərimizin tanıdılması istiqamətində əhəmiyyətindən danışıb.

Sonra Xalq artisti Gülyanaq Məmmədova, aşıq İlham Abdullayev və AMM-in nəzdindəki "Azərbaycan qızları" ansamblının iştirak ilə musiqili proqram təqdim olunub.

# Pandemiya zamanının ilk dünya sammiti

İtaliyanın "Böyük iyirmiliyə" (G20) sədrliyi çərçivəsində oktyabrın 30-31-də Romada G20 Sammiti keçiriləcək. COVİD-19 pandemiyası səbəbindən 2 illik fasilədən sonra ilk dəfə liderlərin üz-üzə müzakirələr aparacağı sammitdə çoxtərəfilik, bərabərlik və səhiyyə xidmətlərinə əlçatanlıq, gələcək şoklara qarşı dayanıqlılığın artırılması kimi mövzuların nəzərdən keçirilməsi gözlənilir.

G20 liderləri birinci sessiyada "Dünya iqtisadiyyatı və qlobal səhiyyə" mövzusunu müzakirə edəcəklər. Sammitdə "İqlim dəyişikliyi və ətraf mühit" və "Dayanıqlı inkişaf" adlı sessiyalar da keçiriləcək.

G20 dövlətləri sırasında yer alan Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan da sammitə qatılacaq. Almaniya Kansleri Angela Merkel bu toplantıda ölkəsini sonuncu dəfə təmsil edəcək. Rusiya, Yaponiya, Çin rəhbərlərinin sammitə videokonfrans vasitəsilə qoşulacağı bildirilir. Toplantıda BMT və digər beynəlxalq təşkilatlar da təmsil olunacaq.

2020-ci il dekabrın 1-də G20-yə sədrlik Səudiyyə Ərəbistanından İtaliyaya keçib. Bu məqamdan sonra İtaliya sədrliyi İndoneziyaya təhvil verəcək.

"Böyük iyirmilik" ölkələri dünya iqtisadiyyatının 80 faizini, qlobal ticarətin 75 faizini və dünya əhalisinin 60 faizini əhatə edir. G20 formatı 1999-cu ildə maliyyə nazirləri və mərkəzi bank rəhbərlərinin məsləhətləşmələri üçün yaradılıb, 2008-ci ildən isə dövlət və hökumət başçılarını bir araya gətirir. İlk sammit Vaşinqtonda keçirilib.




2014-cü ildən G20 sammitini qəbul edən ölkə "G20 İnterfaith Forum" – Konfessiyalararası Foruma da ev sahibliyi edir. Bu il sentyabrın 12-14-də Boloniya şəhərində gerçəkləşən G20 Konfessiyalararası Forumuna Azərbaycan nümayəndə heyəti də qatılmışdı. Mədəniyyət naziri Anar Kərimov Forumun "Təhsil və dini müxtəliflik" mövzusunda sessiyasında çıxış etmişdi.

# İstanbulda Xalq Musiqiləri Festivalı keçiriləcək

İstanbulda yeni istifadəyə verilən Atatürk Mədəniyyət Mərkəzi 11–13 noyabr tarixində III Beynəlxalq Xalq Musiqiləri Festivalına ev sahibliyi edəcək.



Türkiyə Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə keçiriləcək festivalın proqramı "Sənət Həyatdır" Dərnəyi tərəfindən hazırlanıb.

Festivalın açılış konsertində Marakeş əsilli məşhur fransız sənətçi Hindi Zəhra ilə türk musiqiçi Yavuz Bingöl çıxış edəcək.

Festivalın qonaqları arasında Azərbaycanın Xalq artisti Azərin də yer alacaq. Müğənni noyabrın 13-də musiqisevərlərlə görüşəcək.

# III Beynəlxalq Türk Dünyası Mühəndislik və Fənn Elmləri Konfransı

Ankarada Türk Eğitim-Sen – Təhsil üzrə Azad Həmkarlar İttifaqı və Beynəlxalq Avrasiya Təhsil Həmkarlar İttifaqının (BATHİ) birgə keçirdiyi III Beynəlxalq Türk Dünyası Mühəndislik və Fənn Elmləri Konfransında 13 ölkədən aidiyyəti qurumların təmsilçiləri, alimlər iştirak ediblər.

22–24 oktyabr tarixində onlayn formatda keçirilən konfrans Türk Eğitim-Senin "Youtube" kanalından və sosial şəbəkə səhifələrindən canlı yayımlanıb. Azərbaycandan tədbirə Təhsil İşçiləri Azad Həmkarlar İttifaqı Respublika Komitəsinin sədr müavini Mirzə Cəfərzadə qatılıb.

Açılış nitqi ilə çıxış edən Türk Eğitim-Senin baş direktoru Talip Geylan diqqətə çatdırıb ki, builki toplantıda mühəndislik və fənn elmləri sahəsində tanınan nüfuzlu alimlər elmin bu günü və gələcəyi ilə bağlı məruzələrini təqdim edəcəklər. Bildirilib ki, bu cür konfranslar Türk dünyasını təmsil edən ölkə və toplumlar üçün elm və texnologiya sahəsində biliklərin paylaşılması baxımından əhəmiyyətlidir.

Qeyd edək ki, konfrans çərçivəsində 33 onlayn sessiya keçirilib. Yunus Əmrə, Qazi Mustafa Atatürk, Memar Sinan, Piri Rəisin xatirəsinə həsr edilən, eləcə də məşhur alimlər Əziz Sancar, Oktay Sinanoğlu, Cahit Arf, Mennan Aksoy ilə bağlı panellərdə 90-dan çox təqdimat edilib. Sessiyalara ümumilikdə 300-dək alim qatılıb.

Konfransın bağlanış sessiyasında təşkilat komitəsində yer alan alimlərin iştirakı ilə qiymətləndirmə mərasimi keçirilib və yekun bəyannamə təqdim edilib. Həmçinin universitet səviyyəsində bütün prioritet sahələr üzrə müxtəlif miqyasda kitabların yazılması və ya onların xarici dillərdən türk dilinə tərcüməsi tövsiyə olunub. Bəyannamədə ortaq türk dili əlifbasına keçidin zəruriliyi də vurğulanıb.

Eyni zamanda artıq ənənə halını almış konfransın Türk dünyasında mədəni körpülərin möhkəmləndirilməsi baxımından əhəmiyyəti qeyd olunub. Türk dünyası ölkə və toplumları arasında elmi-texniki, mədəni, humanitar sahələrdə əlaqələri sıxlaşdırmaq üçün Türk Dövlətləri Elm Şurası, Türk Dünyası Araşdırma və Gənclik Mərkəzi kimi qurumların yaradılması, elm və texnologiyalar üzrə ortaq türk terminologiyasının tətbiqi, birgə layihələr həyata keçirilməsi, "Türk dünyası elm mükafatı"nın təsis olunması ilə bağlı tövsiyələr səslənib.

**Mehparə SULTANOVA**
**Ankara**

# 4 min yaşı olan qızıl kuzə

## İllər sonra Türkiyəyə qaytarılıb

Vaxtilə qeyri-qanuni yollarla Türkiyədən çıxarılan, 4 min ildən çox yaşı olan qızıl kuzə İngiltərənin "Gilbert İncəsənət Fondu" ("Gilbert Trust for the Arts") tərəfindən Ankaradakı Anadolu Mədəniyyətləri Muzeyinə qaytarılıb.



Kuzənin geri qaytarılması münasibətilə muzeydə mərasim keçirilib. Türkiyənin mədəniyyət və turizm naziri Mehmet Nuri Ersoy bildirib ki, qızıl kuzə 1989-cu ildə sözügedən fondun təsisçisi Artur Gilbert tərəfindən alınıb. Amma onun bu əntiq əşyanın qeyri-qanuni mənşəyindən xəbəri olmayıb. O, əsəri qorunmaq üçün Londondakı Viktoriya və Albert Muzeyinə həvalə edib. Kuzə uzun illər bu muzeydə saxlanılsa da, heç vaxt ictimaiyyət qarşısında nümayiş etdirilməyib. Bir müddət sonra "Gilbert İncəsənət Fondu" kuzə ilə bağlı mənşə ekspertizası aparılmasını istəyib.

Ekspertiza kuzənin Türkiyədən qeyri-qanuni aparıldığını müəyyən edib. Artur Gilbert kuzəni 1989-cu ildə Los-Ancelesdə antikvar satıcısı olan Bryus Maknolldan 250 min dollara alıb. Maknoll kuzəni Sürixdə bərpaçı Frits Burkadan aldığını, onun isə İtaliyada məhkum edilmiş antik əşyalar satıcısı Cakomo Medici ilə əlaqəli olduğunu söyləyib.

Ekspertiza rəyi elan olunandan sonra qədim kuzə "Gilbert İncəsənət Fondu"na, oradan da Türkiyəyə qaytarılıb.

**CAVİD**

# Avropanın ən yaxşı hava limanı




İsveçrənin Sürix Beynəlxalq Aeroportu Avropa regionu üzrə növbəti dəfə "Dünya Səyahət Mükafatı"na layiq görülüb.

85 ölkə üzrə 340 aeroport haqqında müxtəlif kateqoriyalar üzrə sorğunu hotelçilik və səyahət ekspertləri cavablandırıblar. Müştəri məmnunluğu, məhsul və xidmətlərin keyfiyyəti kateqoriyalarında bütün Avropa aeroportlarını üstələyən Sürix aeroportu növbəti dəfə birinciliyi qoruya bilib.

Hava daşınması üzrə qiymətləndirmədə "British Airways" şirkəti "Avropanın aparıcı aviaşirkəti – First Class", "Air France" şirkəti "Avropanın aparıcı aviaşirkəti – Business Class" və "Lufthansa" isə "Avropanın aparıcı şirkəti – Economy Class" nominasiyaları üzrə qalib olublar.

Jüri həmçinin ən yaxşı turizm istiqamətləri, hotel və restoranlar üzrə də Avropa qaliblərini müəyyən edib. İstanbuldakı "Çırağan Palace Kempinski" 2021-ci il üzrə Avropanın ən yaxşı hoteli adına layiq görülüb.

Qeyd edək ki, hotelçilik və səyahət sahəsində ekspertlərdən ibarət beynəlxalq jüri 27 ildən bəri səyahət və turizm sektoru istiqamətində müxtəlif kateqoriya və seqmentlər üzrə qiymətləndirmə aparır və "Dünya Səyahət Mükafatı" həmin qiymətləndirmə əsasında verilir.

# Nizaminin 880 illiyinə həsr olunan poçt markası

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan "Azərpoçt" MMC tərəfindən dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 880 illiyinə həsr olunmuş poçt markası dövriyyəyə buraxılıb.




Nazirlikdən verilən məlumata görə, buraxılış 1 markadan ibarət blok şəklində hazırlanıb. Blokun eskizi mövzuya uyğun olaraq tərtib edilib. Markanın üzərində Nizami Gəncəvinin portreti, blokun kənarlarında isə "Xəmsə"yə daxil olan poetik incilər miniatür şəklində təsvir olunub.

Müəllifi rəssam Orxan Qarayev olan poçt markası 5 min tirajla nəşr edilib. Poçt markası ilə yanaşı, 200 ədəd "birinci gün" zərfi də hazırlanaraq çap olunub.

Qeyd edək ki, ölkə başçısının 2021-ci ilin "Nizami Gəncəvi İli" elan olunması barədə sərəncamının icrası ilə bağlı Nazirlər Kabinetinin təsdiq etdiyi Tədbirlər Planında bu mövzuda poçt markasının hazırlanması da əksini tapıb.

# Elçinin pyesləri İtaliyada nəşr olunub

Xalq yazıçısı Elçinin pyesləri bir sıra xarici ölkələrin teatrlarında da uğurla tamaşaya qoyulub.

Yazıçının pyesləri əsasında Nyu-York, London, Roma, İstanbul, Ankara, Moskva, Sankt-Peterburq, Seul və başqa şəhərlərin teatrlarında hazırlanmış səhnə əsərləri maraqla qarşılanaraq müasir Avropa dramaturgiyasının uğurları kimi qiymətləndirilib. Əlamətdar hadisədir ki, Seul Opera və Balet Teatrının sifarişi ilə Elçinin "Cəhənnəm sakinləri" pyesi əsasında ingilis bəstəkarı Lorens Mark Viti müzikl yazıb. Müzikl teatrın səhnəsində tamaşaya qoyulub və böyük müvəffəqiyyət qazanıb.




Bu günlərdə Romada "Tedi Editore" nəşriyyatında Elçinin "Teleskop", "Mənim sevimli dəlim" və "Şekspir" tragikomediyalarından ibarət kitabı çap olunub. Pyesləri italyan dilinə Monika Puqlia tərcümə edib. Milan Dövlət Universitetinin professoru Stefano Bruno Galli kitaba yazdığı ön sözdə Elçinin əsərlərinin ümumbəşəri mövzuda olduğunu, eyni zamanda müəllifin müasirliyi ilə onu xüsusilə heyrətləndirdiyini vurğulayıb.

Kitabda ədəbiyyatşünas Jan Pertin Elçinin həyat və yaradıcılığı haqqında yazdığı ətraflı məlumat da yer alıb.

Qeyd edək ki, bir müddət bundan əvvəl yazıçının "Baş" romanı Romada italyan dilində nəşr olunub və maraqla qarşılanıb.

# "Skyscanner" platformasında ölkəmizin təbliğatı

Azərbaycan Turizm Bürosu qlobal elektron axtarış sistemi kimi aviabiletlər, hotel və avtomobil icarəsini əlçatan edən "Skyscanner" platformasında onlayn kampaniyaya başlayıb.




Dövlət Turizm Agentliyindən bildirilib ki, kampaniya çərçivəsində "www.skyscanner.net" saytında beynəlxalq platformanın İsrail, Bəhreyn, Qətər, Birləşmiş Ərəb Əmirlikləri və Türkiyədən olan istifadəçiləri üçün Azərbaycana uçuşlar, hotellər və turizm təklifləri haqqında ingilis dilində ətraflı məlumatlar yerləşdirilib. Platforma istifadəçiləri əsas səhifəni sadalanan ölkələr üzrə dəyişdikdə Azərbaycan haqqında maraqlı məlumatların yerləşdirildiyi səhifəyə yönləndirilir. Səhifədə isə ölkəmizin UNESCO-nun Dünya İrsi Siyahısına salınmış obyektləri, memarlıq və sənətkarlıq nümunələri, təbiəti, multikultural mühiti haqqında məlumatlar öz əksini tapır.

"Skyscanner" onlayn səyahət agentliyinin əsası 2003-cü ildə Böyük Britaniyada qoyulub. Saytın aylıq ziyarətçi sayı 100 milyona çatır.

**Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri**
# MƏDƏNİYYƏT
**Qəzet 1991-ci ilin yanvarından çıxır**

**Baş redaktor:** Vüqar Əliyev
**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D Dövlət Film Fondu, 5-ci mərtəbə
**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279
**İndeks:** 0187
**Qiyməti:** 60 qəpik
"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5146
**Sifariş:** 2163
**Buraxılışa məsul:** Fariz Yunisli
Yazılardakı faktlara görə müəlliflər cavabdehdirlər.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.